# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## XİN-dən İrana cavab: "Bu iddiaların heç bir əsası yoxdur"



6

№ 137 (7305)

5 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

# Ermәniyә tarixi dәrs: "Qisas" әmәliyyatı"



2

**Prezident İlham Əliyev: "Qisas" әmәliyyatının çox tәsirli, ancaq qısamüddәtli olması onu göstәrir ki, bizim gücümüz dә yerindәdir"**

## Almaniyanın müharibәni dәstәklәmәsi fonunda

# AVROPA REVANŞİZMİ





5

### "1 alana 1 hәdiyyә": Fürsәt, yoxsa tәhlükә?



16

### Tolerant mühitdә birlik vә hәmrәylik



10

### Cehiz: Zәrurәt, yoxsa keçmişin qalığı?



11

## Bakıda "makler tәlәsi"nә düşәnlәr...



5

## Sosial şәbәkәlәrdә böyüyәn uşaqlar...



7

# Ermәniyә tarixi dәrs: "Qisas" әmәliyyatı"

## Prezident İlham Əliyev: "Qisas" әmәliyyatının çox tәsirli, ancaq qısamüddәtli olması onu göstәrir ki, bizim gücümüz dә yerindәdir"





44 günlük Vәtәn müharibәsindә qazandığımız Zәfәr ölkәmizin hәyatında yeni bir dövrün başlağıcı oldu vә regionda sülhün, tәhlükәsizliyin tәminatına töhfә verdi. Azәrbaycan dәfәlәrlә bәyan edib ki, müharibәdәn sonra regionda yeni vәziyyәt yaranıb vә Ermәnistan da yeni yaranmış vәziyyәtdә әmәkdaşlıqdan faydalana bilәr. Ölkәmizin әrazi bütövlüyünün bәrpası üçün Azәrbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rәhbәrliyi ilә Milli Ordumuzun şücaәti, igidliyi nәticәsindә torpaqlarımız işğaldan azad olundu. Azәrbaycan ordusu düşmәni öz torpaqlarından qovdu. Cәnab Prezidenti İlham Əliyev çıxışlarının birindә vurğuladığı kimi, "Otuz il әrzindә Ermәnistan rәhbәrliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilmәz Ermәnistan ordusu" barәdә miflәr yaradırdı. Haradadır bu "yenilmәz Ermәnistan ordusu?. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerә vurduq". Azәrbaycan bayrağı işğaldan azad olunan torpaqlarımıza sancıldı vә bu, hәr kәsin 30 ilә yaxın bir zamanda gözlәdiyi möhtәşәm hadisә idi.

Artıq Azәrbaycan Ordusu bölmәlәrinin keçirdiyi "Qisas" әmәliyyatından üç il ötür. Rusiya Federasiyası sülhmәramlı kontingentinin müvәqqәti yerlәşdiyi Azәrbaycan әrazisindәki qeyri-qanuni ermәni silahlı dәstәlәrinin üzvlәri 10 noyabr 2020-ci il tarixli Bәyanatın müddәalarını kobud surәtdә pozaraq avqustun 3-dә Azәrbaycan Ordusunun bölmәlәrinә qarşı terror-tәxribat әmәli törәtdilәr. Terror-tәxribat nәticәsindә hәrbi qulluqçumuz әsgәr Kazımov Anar Rüstәm oğlu şәhid oldu. Əmәliyyat çәrçivәsindә qeyri-qanuni ermәni silahlı ünsürlәrinin bir neçә döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdәrә rayonunun Yuxarı Oratağ yaşayış mәntәqәsindәki hәrbi hissәyә havadan zәrbә endirildi. Ordumuz Buzdux dağı vә әtraf yüksәkliklәri azad etmәklә hәm dә hәrbi-strateji әhәmiyyәtli Ağdaban, Çayqovuşan, Vәngli, Narıştar kәndlәri, habelә "Sәrsәng" su anbarına viziual nәzarәt etmәk imkanı qazandı.

### "QİSAS" ƏMƏLİYYATININ ÇOX TƏSİRLİ, ANCAQ QISAMÜDDƏTLİ OLMASI ONU GÖSTƏRİR Kİ, BİZİM GÜCÜMÜZ DƏ YERİNDƏDİR"

"Qisas" cavab әmәliyyatı bir daha ermәniyә Azәrbaycan Ordusunun gücünü göstәrmiş oldu. Ermәnistan öz çirkin әmәllәrini davam etdirirәk mövcud böhrandan xilas olmaq әvәzinә növbәti tәxribatlara әl atırdı. Bildiyimiz kimi, Rusiya Federasiyası sülhmәramlı kontingentinin müvәqqәti yerlәşdiyi Azәrbaycan әrazisindәki qeyri-qanuni ermәni silahlı dәstәlәrinin avqustun 3-dә sәhәr saatlarında Laçın rayonu istiqamәtindә yerlәşәn Azәrbaycan Ordusunun bölmәlәrinin mövqelәrinin intensiv atәşә tutması vәziyyәti qәsdәn gәrginlәşdirmәk cәhdi kimi qiymәtini almış oldu. Ermәnistan yenә dә öz ampulasında çıxış edirdi. Bu kimi tәxribatlar törәtmәklә Azәrbaycanı da cavab tәdbirlәri görmәyә tәhrik etmәyә cәhd göstәrir. Azәrbaycan Prezidenti İlham Əliyev çıxışlarının birindә bildirmişdir: "Ermәnistan tәrәfi növbәti dәfә silahlı tәxribata әl atdı vә bu hәrbi tәxribat nәticәsindә bir hәrbçimiz şәhid olmuşdur. Allah ona rәhmәt elәsin. Allah bütün şәhidlәrimizә rәhmәt elәsin. Ancaq hәr kәs gördü vә görmәlidir ki, şәhidimizin qanı yerdә qalmadı.

Ardı Səh. 3



## Elçin İlyas oğlu Əfәndiyev

**Azәrbaycanın mәdәni ictimaiyyәtinә ağır itki üz vermişdir. Müasir Azәrbaycan әdәbiyyatının görkәmli nümayәndәsi, Xalq yazıçısı, tanınmış dramaturq, tәnqidçi vә әdәbiyyatşünas, ictimai-siyasi xadim, filologiya elmlәri doktoru professor Elçin İlyas oğlu Əfәndiyev 2025-ci il avqustun 3-dә ömrünün 83-cü ilindә vәfat etmişdir.**

Elçin Əfәndiyev 1943-cü il mayın 13-dә Bakı şәhәrindә anadan olmuşdur. Orta mәktәbi bitirdikdәn sonra o, 1960-1965-ci illәrdә Azәrbaycan Dövlәt Universitetinin Filologiya fakültәsindә ali tәhsil almış, 1965-1969-cu illәrdә Azәrbaycan Elmlәr Akademiyasının Nizami adına Dil vә Ədәbiyyat İnstitutunun aspiranturasında oxumuşdur.

Əmәk fәaliyyәtinә Azәrbaycan Elmlәr Akademiyasının Nizami adına Ədәbiyyat İnstitutunda elmi әmәkdaş kimi başlayan Elçin Əfәndiyev 1969-1975-ci illәrdә orada işlәmişdir. O, 1975-1987-ci illәrdә Azәrbaycan Yazıçılar İttifaqı İdarә Heyәtinin katibi, 1987-1993-cü illәrdә isә Xaricdә yaşayan hәmvәtәnlәrlә Mәdәni Əlaqәlәr Cәmiyyәti - "Vәtәn" Cәmiyyәti rәyasәt heyәtinin sәdri olmuşdur. Elçin Əfәndiyev 1993-2018-ci illәrdә Azәrbaycan Respublikası Baş nazirinin müavini vәzifәsindә çalışmışdır.

Müasir Azәrbaycan әdәbiyyatının parlaq simalarından olan yazıçı Elçin Əfәndiyev bütün fәaliyyәti әrzindә 60-cı illәr nәslinin әnәnәlәrinә sadiqlik nümayiş etdirmiş vә milli bәdii fikrin zәnginlәşmәsindә mühüm rol oynamışdır. O, hәlә әdәbi yaradıcılığa başladığı ilk vaxtlardan mәnәvi axtarışlarla dolu әsәrlәrinin poetik gücü ilә geniş oxucu kütlәsinin dәrin rәğbәtini qazanmışdır. Realist psixoloji tәhlilin dәrinliyi vә bәdii-estetik ifadә vasitәlәrinin rәngarәngliyi ilә seçilәn bu әsәrlәr Azәrbaycan nәsrinin qiymәtli nümunәlәridir.

Ədәbiyyatımızın yeni mәrhәlәsinin formalaşmasının fәal iştirakçısı olan sәnәtkar uzaq vә yaxın tarixi keçmişimizlә bağlı roman, povest, hekayә vә pyeslәrindә xalqımızın mәnәvi-әxlaqi dәyәrlәrinin tәbliğini diqqәt mәrkәzindә saxlamışdır. Elçinin ssenarilәri әsasında çәkilәn filmlәr uğurlu ekran hәyatı yaşayaraq Azәrbaycan kinematoqrafiyasının qızıl fonduna daxil olmuşdur.

Elçin Əfәndiyev tәnqidçi-әdәbiyyatşünas kimi klassik irsә vә müasir әdәbi prosesә dair aktual mövzularda dәyәrli elmi-nәzәri yazıları, portret-oçerklәri ilә әdәbi mühitin inkişafına sanballı töhfәlәr vermişdir.

Yazıçının әsәrlәri bir çox xarici dillәrә tәrcümә olunmuş, müxtәlif teatr sәhnәlәrindә tamaşaya qoyularaq müәllifinә şöhrәt qazandırmışdır. Onun mötәbәr beynәlxalq konfranslarda çıxışları elmi vә әdәbi ictimaiyyәt tәrәfindәn maraqla qarşılanmışdır.

Elçin Əfәndiyev ölkәmizin ictimai-siyasi vә mәdәni hәyatında daim yaxından iştirak etmişdir. Xaricdә yaşayan soydaşlarımızın tarixi Vәtәnlә әlaqәlәrinin dәrinlәşmәsindә xidmәtlәri onun azәrbaycançılıq mәfkurәsinә sәdaqәtinin bariz ifadәsidir. Elçin Əfәndiyev uzun illәr Azәrbaycan Respublikası Baş nazirinin müavini vәzifәsindә tәqdirәlayiq fәaliyyәt göstәrmişdir.

Elçin Əfәndiyevin xidmәtlәri hәmişә yüksәk qiymәtlәndirilmişdir. O, Azәrbaycan Respublikasının ali dövlәt mükafatları - "İstiqlal" (2003), "Şәrәf" (2013), "Şöhrәt" (2018) ordenlәri vә "Azәrbaycan Respublikası Prezidentinin fәxri diplomu" (2023) ilә tәltif edilmişdir.

Görkәmli yazıçı vә alim, tanınmış ictimai-siyasi xadim, sәmimi vә tәvazökar insan Elçin İlyas oğlu Əfәndiyevin әziz xatirәsi onu tanıyanların qәlbindә hәr zaman yaşayacaqdır.

Allah rәhmәt elәsin!

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsәdov
Sahibә Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fәrәh Əliyeva
Adil Kәrimli
Polad Bülbüloğlu
İsa Hәbibbәyli
Anar Rzayev
Nәriman Hәsәnzadә
Kamal Abdullayev
Çingiz Abdullayev
Hacı İsmayılov

# Erməniyə tarixi dərs: "Qisas" əməliyyatı

**Prezident İlham Əliyev: "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir"**



Əvvəli Səh. 2

Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq". Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatının cəza tədbiri olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır: "Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq. Heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz". Əlbəttə ki, ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaqdır.

"Biz öz torpağımızda istənilən zaman istənilən əməliyyatı apara bilərik. Sadəcə olaraq, "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq", - Ali Baş Komandan əlavə edib.





## "2016-CI İLDƏ APREL DÖYÜŞLƏRİNDƏ DÜŞMƏNƏ DƏRS VERDİK"

Əlbəttə ki, Zəfər tariximizə qədər Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. "2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürülдüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: "Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı". 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

## 23 SAAT 43 DƏQİQƏ...

Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha bir missiyanı uğurla yerinə yetirdi. Azərbaycan Ordusu Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. İki il əvvə sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir. Qeyd edək ki, iki ilə əvvəl sentyabr ayının 19-da Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsinin sıradan çıxması və mülki vətəndaşlarımızın həlak olması, elə həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımızın şəhid olması Azərbaycan Respublikasını öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün lokal xarakterli antiterror tədbirlərinə başlamağa vadar etdi.

Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyatın əsas məqsədi Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi, onların hərbi obyektlərinin məhv edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi. Əməliyyat zamanı Azərbaycan Ordusu müasir hərbi texnika və yüksək dəqiqlikli vasitələrdən istifadə edərək strateji mövqelərdə yerləşdirilmiş qanunsuz erməni silahlı qüvvələrini sıradan çıxardı. Beləliklə, Ağdərə, Xoçavənd, Xocalı və Xankəndidən separatçıların qovulması ilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu. Tədbir zamanı şanlı ordumuz tərəfindən mülki əhali və infrastruktur obyektləri qətiyyən hədəf alınmamış, yalnız legitim hərbi hədəflər sıradan çıxarılmışdır. Bütün bu tədbirlər sübüt edir ki, Azərbaycan dövləti hər zaman erməni əsilli əhalisinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər görməyə hazırdır.

## "QARABAĞ AZƏRBAYCAN ƏRAZİSİDİR VƏ BUNU BÜTÜN DÜNYA TANIYIR"

Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunmuşdur. Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstərilmişdir. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. Bu şəraiti yaradan isə Müzəffər Ali Baş Komandandır.

"Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb", - deyə Azərbaycan Prezidenti bildirib: "Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, öz xoşu ilə bunu etməyib, "dəmir yumruq" hesabına bunu etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı status ola bilər? Hansı dövlət atributları ola bilər? Hansı seçkilər ola bilər?"

Bu tarixi Zəfər Azərbaycan nümayəndələri ilə görüşdən dəfələrlə imtina edən Qarabağın erməni icmasını Yevlax şəhərində danışıqlar aparmağa vadar etdi. Görüşdə separatçı rejimin ləğvi, Qarabağda yaşayan erməni sakinlərin reinteqrasiya məsələləri müzakirə edilmişdi. Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olmaq, regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanları yaradılmışdır.

Qeyri-qanuni erməni ordusu Qarabağ ərazisindən tərkisilah edildi və Azərbaycan öz dövlət suverenliyini tam və qəti şəkildə bərpa etdi. "Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir. Aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır", - deyə Prezident bildirmişdir.

Bu əməliyyatlar nəticəsində Xankəndi, Xocalı, Ağdərə və digər strateji şəhərlər üzərində tam nəzarət təmin edildi, üçrəngli dövlət bayrağımız azad edilmiş bütün ərazilərimizdə dalğalandırıldı. Artıq ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün bərqərar olunmasından iki il ötür. Bölgəmizdə yeni vəziyyətin yaranmasının labüd olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib: "Çünki kriminal xunta rejimi təslim olandan sonra artıq bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular.

Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətləndi və ardıcıllıqla həyata keçirilir. Bu gün Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızı daha da sürətləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Bizim həyət” - sağlam ekoloji mühit

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması məqsədi ilə istifadə edilməsi ölkəmizdə aparılan sosial-iqtisadi islahatların tərkib hissəsidir. Ölkə rəhbərliyinin ekoloji məsələlərə göstərdiyi diqqət sayəsində ətraf mühitin yaxşılaşdırılması istiqamətində son 22 ərizində bir sıra layihələr həyata keçirilib, ekoloji problemlərin həllinə yönəlmiş tədbirlər görülüb. Ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilib və bu gün də davam etdirilir. Belə ki, çirklənmiş torpaqların ekoloji vəziyyətinin sağlamlaşdırılması, neftlə çirklənmiş torpaqların, eləcə də müxtəlif maddələrlə çirklənmiş göl və gölməçələrin bərpası istiqamətində tədbirlər görülüb. İnsanların rahatlığı, firavanlığı, onların sosial rifahının yüksəlməsi məqsədi ilə ölkəmizdə davamlı olaraq tədbirlər həyata keçirilir. Bu insan amilinə olan diqqət və qayğıdır. Əlbəttə ki, bugünki dünyamızda insanların istirahəti, ekoloji cəhətdən sağlam mühitin yaradılması məqsədi ilə davamlı tədbirlər reallaşır.







Şəhərətrafı yaşıllıqların salınması insanların sosial həyatı və sağlamlığı üçün faydalı olmasını nəzər alaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən ”Bizim həyət” layihəsi də uğurla davam etdirilir. ”Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpasıdır. Bütün bunlarla yanaşı, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması da məqsəd olaraq daim diqqətdə saxlanılır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ”Bizim həyət” layihəsi 2017-ci ildən etibarən icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. ”Bizim həyət” layihəsi çərçivəsində bu günədək 159 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib. Artıq Bakının bir sıra rayonlarında Nəsimi, Nərimanov, Xətai, Binəqədi rayon ərazilərindəki bəzi məhəllələrdə bu layihə reallaşıb.

”Bizim həyət” layihəsi çərçivəsində reallaşan layihələr çərçivəsində abadlaşdırılan həyətlərdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb. Belə ki, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin formalaşdırılması məqsədilə müxtəlif idman qurğuları, futbol meydançaları, şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları, velosiped yolu salınıb. Görülən işlər insanların rahat bir şəkildə istirahətlərinin, asudə vaxtlarının təşkilində əhəmiyyətlidir. Əminliklə qeyd edək ki, layihə çərçivəsində sakinlərin istək və maraqları nəzərə alınıb və yeni liftlər, işıqlandırma dirəkləri, yanğın hidrantları quraşdırılıb. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq ağaclar əkilib və ərazidə yaşıllıq zolaqları salınıb.

## EKOLOJİ SAĞLAMLIĞIN TƏMİNİ

Bu yaxınlarda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli ”AB” yaşayış sahəsində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 3500-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verildi. ”Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş bu həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb. Həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları yerləşdirilib, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ yeni ağaclar və mövsümi güllər, eləcə də kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən, havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək ”yaşıl sədlər” yaradılıb.

Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində tədbirlər davam etdirilir. İnsanların sağlam təbii mühitdə və şəraitdə yaşaması naminə görülən səmərəli işlər təqdirəlayiqdir. Ətraf mühitin, suların təmiz, havamızın saf olması üçün bunu özümüzün vətəndaşlıq borcumuz olduğunu dərk etməliyik.

Ölkəmizdə ekoloji sağlamlığın təmini, gələcək nəsillərə təmiz ekoloji mühitin ötürülməsi məqsədilə müvafiq addımlar atılır. Azərbaycanın mövcud təbii-coğrafi şəraiti, zəngin təbii ehtiyatları ekoloji təhlükəsizliyinin daim diqqət mərkəzində olmasını tələb edir. Son illərdə ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli, təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin hüquqi bazasının yaradılması istiqamətində respublikamızda müəyyən işlər görülüb. Azərbaycan qlobal ekoloji problemlərin həllində aktiv iştirak etməklə, regional və beynəlxalq səviyyədə geniş fəaliyyət göstərir. Beynəxalq konvensiyaların ratifikasiyası, beynəlxalq sahədə əməkdaşlığın genişlənməsi, eyni zamanda milli səviyyədə qanunların qəbulu və həyata keçirilməsi sübutedici faktorlardır.

Əlbəttə ki, ətraf-mühitin mühafizəsi istiqamətində IDEA kampaniyasının fəaliyyəti danılmazdır. 2011-ci il 12 iyul tarixindən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ideyası əsasında fəaliyyətə başlayan kompaniya ölkə daxili, həmçinin xarici fəaliyyəti ilə uğurlara imza atır. Kampaniyanın təşkilatçılığı ilə reallaşan müxtəlif layihə və tədbirlər ekoloji şüurun formalaşmasına, ekoloji təhsilin artırılmasına xidmət edir. Təqdirəlayiq xüsusiyyət isə hər bir layihənin gənc nəslin təşəbbüsü, iştirakı və rəhbərliyi ilə gerçəkləşməsidir.

## ”HƏR BİR İNSAN TƏBİƏTİ SEVMƏLİ VƏ ONA QAYĞI GÖSTƏRMƏLİDİR”

Leyla Əliyeva IDEA İctimai Birliyinin sədri olaraq təbiətin qorunması istiqamətində bir sıra layihələrə imza atıb. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələləri ilə məşğul olan ən böyük təşkilatdır. Bu kampaniya çərçivəsində BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilib. Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub- saxlanmasına birgə töhfə verməliyik.

”Hər bir insan təbiəti sevməli və ona qayğı göstərməlidir”, - deyir Leyla Əliyeva. Təbiəti sevməməyin mümkün olmadığı qənaətindədir: ”İnsan və təbiət malik olduğumuz ən dəyərli nemətlərdir”. Belə prinsiplə ekolji mühitin qorunmasına çalışaraq kifayət qədər layihələrin müəllifinə çevrilib. Bu, ”Bir planet - bir gələcək” devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda ”Böyük Qafqaz beşliyi” deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. ”Biz məhv olmaq təhlükəsi ilə üzləşən heyvanların yox olmasının qarşısını almağa çalışırıq”, deyərək ovçuluğun bütün dünyada mövcudluğunu dilə gətirib: ”Bu, qəbul edilləndir və bəzən hətta faydalıdır. Lakin adları ”Qırmızı kitab”a daxil olan heyvanlar öldürülməməlidir, onlar qorunmalıdır. Bunun üçün biz fəal təbliğat işi aparırıq, izah edirik, danışırıq. Ən başlıcası bu haqda düşünməkdir. Ceyranların reproduksiyası ilə bağlı bizim layihələrimiz olub. Mənim üçün ən vacib layihələrdən biri də Qafqaz bəbirinin qorunub saxlanmasıdır”.

Əlbəttə ki, təbiətə zəruri qayğı sağlam ekoloji mühitlə təmin olunmağımızdır.

***Zümrüd BAYRAMOVA***

# Almaniyanın müharibəni dəstəkləməsi fonunda AVROPA REVANŞİZMİ




Almaniya Xarici İşlər Nazirliyinin yeni rəhbərinin Kiyevə yollandığı heç də dünya ictimaiyyətinin diqqətindən yayınmayıb. Bu fonda hətta alman mediası Berlinin Zelenski rejimi ilə böyük müqavilə bağladığını belə təsdiqləyirsə, deməli, hadisələrin gedişi diqqətdən yayına bilməz. Əgər Fridriz Merts Ukrayna Silahlı Qüvvələri üçün 1200 kilometrə qədər mənzilli, yəni Rusiyanın dərinliklərinə hücumlar üçün 500 hücum dronunun istehsalını maliyyələşdirəcəksə, ən azından buna söz verirsə, eyni zamanda, yenidən Ukraynaya uzaq mənzilli "Taurus" pilotsuz təyyarələrinin göndərilməsi ilə bağlı müzakirələrə qayıdırsa, bu, bütün dünyada məhz Avropa revanşizmi kimi qiymətləndirilməlidir və qiymətləndirilir də

## Amerikanın Kiyevə dəstəkdən imtina etməsi Ukraynaya, Avropaya və NATO-ya ciddi zərbə olacaq

Ekspertlər vurğulayırlar ki, məhz silah-sursat təminatı və dəstəklə bağlı belə bir qərar nasist keçmişi olan Almaniyanın öz neytrallıq siyasətini faktiki olaraq ləğv etdiyini tanımaq, qəbul etmək üçün kifayət edir. Belə görünür ki, Almaniya məhz münaqişəyə həm iştirakçı, həm də Rusiya ərazisinə "hücumların sponsoru" kimi daxil olur. İndi dünyanın ən tanınmış politoloqları, siyasətçiləri belə hesab edirlər ki, Avropa siyasətçilərinin indiki nəsli "qisas almağa" çalışır və İkinci Dünya Müharibəsinin nəticələrinə yenidən baxmaq niyyətindədirlər və onların çoxu sözün əsl mənasında, əcdadlarının çağırışlarını rəhbər tuturlar.

Eyni zamanda hər kəs çox yaxşı bilir ki, bu vaxta qədər ümumiyyətlə, müharibəni, münaqişəni, mübarizəni dəstəkləyən Amerika, onun əvvəlki prezidenti Bayden olub. Daha dəqiq desək, müharibə də, münaqişə də Ukraynanın sərvətlərini mənimsəmək niyyətli məlum səbəblərə görə Baydenin maraqları daxilində olub və məhz bu maraqların fonunda da müharibə ABŞ tərəfindən maliyyələşdirilib deyə, bu zamana qədər uzandığı hamıya bəllidir. İndi Tramp dəstəkdən boyun qaçırdığı zaman razılaşmalar, nəticədə də müharibənin başa çatması müzakirə mövzusu olduğu vaxt hansısa Avropa ölkəsinin, ümumiyyətlə, avropalıların dəstəkdən dəm vurması, hansısa silah-sursat yardımı vəd etməsi revanşizm kimi dəyərləndirilsə də, Amerikanın hərbi təchizatı, dəstəyi olmadan bunun mənasız olacağı, hətta dəstək verərək, münaqişəni uzatmağa çalışan Avropanın özünə belə zərbə olacağı dünyanın ən mötəbər siyasətçiləri, dövlət xadimləri tərəfindən belə etiraf edilir. "Əgər ABŞ Kiyevə lazım olanı verməmək qərarına gəlsə, bu, Ukraynaya, Avropaya və NATO-ya ciddi zərbə olacaq", deyə Danimarkanın baş naziri Mette Frederiksenin bildirdiklərini buna misal olaraq qeyd edə bilərik

## Almaniyanın Kiyevi əbədi dəstəkləməyə and içməsi elə revanşizmdir

Hər kəs çox aydın başa düşür ki, əslində, kimin "Avropa kəmərini" çəkəcəyi çoxdan bəlli idi. Sirr də deyil ki, Rusiya ilə qarşıdurmaya cavabdeh çoxdan Almaniya təyin edilib. Almaniyanın xarici işlər naziri İohan Vadefulun "Ukrayna turnesinə" çıxması da təsadüfi hesab olunmur. Onun məhz Kiyevdə əbədi dəstəyə and içməsi də sıradan bir hal və hadisə kimi də qəbul edilmir. "2025-ci il üçün biz müasir hava hücumundan müdafiə və sursat üçün əlavə 2 milyard avro büdcə ayırmışıq. Ümumilikdə müdafiəniz üçün 9 milyard avro ayrılıb", deyə Almaniyanın xarici işlər naziri İohan Vadeful bildirib və bununla da tam aydın şəkildə bəlli olub ki, Almaniya artıq münaqişənin uzanmasında, Rusiyaya qarşı mübarizənin davam etməsində maraqlıdır, hansıki, bunun adı elə revanşizmdir.

## Almaniya yenidən Avropa revanşizminin lokomotivinə çevrilir

Görünən odur ki, həqiqətən də Almaniya yenidən Avropa revanşizminin lokomotivinə çevrilir. "Taurus" qanadlı raketlərin Kiyevə çatdırılması ilə, Ukrayna ordusunun heç bir əlaqəsi yoxdur və bu, məhz münaqişəni qızışdırmaq deməkdir. Bəli, Mertsin də dediyi kimi, göndərilməsi nəzərdə tutulan silahları ikraynalılar istifadə edəcəklər, amma bununla belə, göndərənlər qızışdıran sayılırlar. "Aydındır ki, biz silahları təslim etsək, bu silahları alman əsgərləri deyil, Ukrayna əsgərləri istifadə edəcəklər", deyə Merts bildirib və bu, məhz revanşizmə rəvac verilməsinin etirafıdır.

Doğrudur, Mertsin vəd etdiyi kimi, uzun müddətli hazırlıqdan sonra belə avadanlıqların öhdəsindən ukraynalılar gələ bilməyəcəklər. Alman yüksək dəqiqlikli silahları yüksək texnoloji dəstək tələb etməsi fonunda onun dedikləri başadüşüləndir. "Silahların istifadəsi peşəkarlar, hərbçilər tərəfindən tərtib edilir. Yəni, Bundesver zabitləri olmadan bunu tərtib etmək mümkün deyil. Bu isə Almaniyanın Ukrayna tərəfindəki hərbi münaqişəyə birbaşa müdaxiləsindən xəbər verir", deyə hərbi ekspert və Hava Hücumundan Müdafiə Qüvvələri tarixçisi Yuri Knutovun açıq şəkildə izah etməsi tamamilə yerinə düşür.

## Revanşizm tarixi yenidən yazmaq istiqamətində Avropanın maraqlarına uyğun olan bir cəhddir

Sirr deyil ki, Rusiya Xarici İşlər Nazirliyi məhz dəfələrlə Qərbin tarixi yenidən yazmaq cəhdlərinə diqqəti yönəldib. Həqiqətən də Rusiya tərəfindən diqqət yönəldilən bu cəhdlər diqqətə layiqdir, çünki məntiqi əsaslara söykənir. Çünki Rusiyanı məhz İkinci Dünya Müharibəsində qalib gələnlər siyahısından çıxarmaq niyyətinin Avropa elitasının maraqlarına uyğun olduğu həqiqətən də məntiqidir. Axı, Köhnə Dünyanın bir çox siyasətçiləri üçün nəticələrə yenidən baxılması öz tərcümeyi-hallarını "xilas etmək" şansı deməkdir. Yəni, öz məğlubiyyət rüsvayçılıqlarını ört-basdır etmək də yox, yenidən bir "xal qazanmaq" cəhdidir. Lakin bunu elə məhz revanşizmlə etmək yolu seçilib.

Çoxdan bəllidir ki, Fridrix Mertsin babası qatı nasist olub. Hətta Kaja Kallasın əcdadının da Estoniyada nasist tərəfdarı olan təşkilata rəhbərlik etdiyi də sirr deyil. Məhz elə bu sadalanan məqamlar məntiqi nəticələrə əsas verir. Bunu təkcə ruslar iddia etmirlə. Elə dünyanın bir çox politoloq və ictimai xadimləri də etiraf edirlər. "Qərbdə bir növ davamlılıq var. Onların Moskvaya qarşı çıxmalarına haqq qazandırmaq üçün istifadə etdikləri motivlər obyektiv olaraq Hitler rejiminin 1930-cu və ya 1940-cı illərinin motivləri ilə üst-üstə düşür", deyə fransız politoloqu və ictimai xadimi Emmanuel Leroyun bildikləri təsdiq edir ki, həqiqətən də Avropanın revanşizmə maraqlı olması təkzibedilməzdir. Avropalılar üçün məhz tarixi yenidən yazmaq üçün yeganə çıxış yolu "müharibənin çarxını fırlatmaq" sayıldığı indi aydın şəkildə görünür. Elə buna görə Rusiyanı günahlandırmaq, istənilən formada diplomatic hücumları belə ön plana gətirmək prioritet sayılır. Bir növ, şər kampaniya indiki Avropa elitasına əcdadlardan gələn "çağırış" kimi bir təəssürat bağışlayır, baxmayaraq ki, onların heç biri uğur qazanmayıb...

*İnam Hacıyev*



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Bakıda "makler tələsi"nə düşənlər...

**Son günlər sənədsiz evlərlə bağlı yaranan problemlər əslində neçə illərdir ki, bölgələrdən işləmək üçün Bakıya axın edən insanların rastlaşdıqları ən aktual məsələdir. Xüsusilə nəzərə alsaq ki, hazırda Bakının yarıdan çox hissəsində mülkiyyətin çıxarışı yoxdur, tam əksəriyyət artıq heç bir hüquqi qüvvəsi olmayan "bələdiyyə qiymətləndirməsi" kimi lazımsız kağız parçası ilə təsəlli tapır, o zaman vəziyyətin mürəkkəbliyi daha geniş aydın olur.**

Düzdür, artıq bir sıra sənədsiz evlərin sənədləşdirilməsi prosesinə başlanılıb, bu proses insanlarda ümid doğurur. Lakin bu prosesdə hansı sənədsiz evlər, hansı kriteriyalar əsas götürülür? - bax, əsas məsələ budur. Dediyim kimi, tam əksəriyyət sənədsiz evlər "bələdiyyə qiymətləndirməsi", ən yaxşı halda isə "texpasport" deyilən sənəddən ibarətdir. Lakin günün aktual məsələsi harada gəldi ev tikən, icazəsi, sənədi olmayan "makler evləri"nin insanlara ucdantutma satılmasıdır. Harada gəldi tikirlər - o zaman qaçqınlar üçün nəzərdə tutulmuş yataqxana ərazilərində, təhlükəli cərəyan altında, strateji dövlət müəssisələrinin balansında olan ərazilərdə...

Bəs bu "makler" şəbəkəsinin günün günorta çağı Bakı və ətraf ərazilərdə ucaltdıqları, amma heç bir tikinti normasına uyğun gəlməyən, gec-tez sonda buldozerin ağzına veriləcək belə evlərin inşasına kimlər "göz yumurlar", nəyin müqabilində?

Bu gün acı da olsa reallıq odur ki, insanlar bölgələrdəki sosial problemlərdən qaçıb Bakıda daha stabil qazanc yeri əldə etmək, "ağ günə" çıxmaq üçün paytaxta axın edirlər. Bu zaman ucuz evlərə hədsiz tələbat yaranır və fırıldaqçı əmlak vasitəçiləri heç bir sənədi olmayan, yalnız kommunal xətlərin olduğu kiçik evləri bazara çıxarırlar. Əlində cüzi vəsait olan insanlar da şirniklənib bu fırıldaqçı "maklerlərin" toruna düşürlər. Yuxarıda da qeyd etdiyim kimi, hazırda sənədsiz evlər problemi Bakı və Abşeron ərazisində getdikcə aktual sosial problem halını almaqdadır.

Bu məsələ olduqca təhlükəli sosial problemdir və dövlət qurumları bu məsələyə olduqca həssas yanaşmalıdırlar. Əlbəttə, neft ərazilərində, dəmir yollarının qırağında tikilən gecəqonduları qanunsuzdur və qəbuledilməzdir. Lakin sual olunur ki, bu boyda evlər kimin icazəsi ilə tikilib? Bunlar tikiləndə icra hakimiyyətləri, müvafiq qurumlar harada "mürgüləyirdilər"? İndi bir çox ərazilərdə "makler"lər qanunsuz tikililər ucaldırlar. Bunlara kim icazə verir?

Gör vəziyyət nə həddə çatıb ki, su, qaz, işıq sayğacları olan evlər az qala çıxarış səviyyəsində qəbul edilir. İnsanlar anlamırlar ki, bu kommunal sayğaclar evin sənədləşməsi üçün heç bir əsas ya da təsir vasitəsi deyil. Həmin sayğaclar istənilən vaxt ləğv oluna bilər. O zaman yerdə acınacaqlı mənzərə yaranacaq: torpağın sənədi yox, evin sənədi yox - sadəcə, qanunsuz tikili, vəssalam!

Hamımıza gün kimi aydındır ki, bu gün qanuni həyət evinin hasarına bir cərgə artırmaq istəsən, yüz qurumdan tökülüb gələcəklər. Bəs bu "maklerlər"ə kim "yaşıl işıq" yandırıb ki, ucdantutma evlər tikib əhalini tora salsınlar? Xüsusilə bu problem Bakının əksər rayonları və Xırdalan ərazisində daha qabarıq hiss olunur. Əlbəttə, iş yeri tapmaq, Bakıda daha yaxşı sosial həyat qurmaq üçün isanlar paytaxta axışırlar, burası bəllidir. Bəs çarə nədir, sənədsiz evləri, gecəqonduların qarşısını necə almaq olar?

Şəxsən mən düşünürəm ki, bölgələrdə formal deyil həqiqi, gerçək, hər bir kəndlinin maddi-sosial həyatına firavanlıq gətirəcək, kənd təsərrüfatını ayağa qaldıracaq olduqca mühüm dövlət proqramına ehtiyac var. Elə bir proqram ki, güclü işlək mexanizmi olsun, kəndlinin yaşayışına təsir etsin, əkib-becərdiyi məhsulun qazancına sevinsin. Kəndli əkib-becərdiyinə görə peşiman olmasın, zəhmətinin gerçək qazancını görsün. Yerlərdə icra məmurlarının, bürokratik əngəllərin yaxın dura bilməyəcəyi dövlət proqramı olduqca aktual və vacib məsələdir.

Mən bu qənaətdəyəm ki, bölgələrdə daimi və gəlirli iş yerləri açılmasa, kənd təsərrüfatının inkişafı üçün konkret tədbirlər görülməsə, Bakıya axın davam edəcək və bu da o deməkdir ki, Bakıda sənədsiz, qanunsuz tikililərin ard-arası kəsilməyəcək. Çarə problemin nəticələrini deyil, əsl SƏBƏBİNİ tapmaqdır. Nəticə səbəbdən doğduğu üçün...

# Uşaqlar işıqlı gələcəyimizdir!

Hər bir ölkənin gələcək inkişafı məhz bu günün uşaqlarından, gənclərindən asılıdır. Uşaqların sağlam mühitdə böyüməsi, tərbiyə alması üçün dövlətimiz tərəfindən ardıcıl olaraq tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişməsi ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyüməsinə xidmət edir. Uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi dövlət uşaq siyasəti Azərbaycanın milli strategiyasının ayrılmaz tərkib hissəsidir.

Onun başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır. Son illərdə uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, pulsuz səhiyyə xidmətinin tətbiqi, uşaq ölümü hallarının kəskin şəkildə azaldılması, uşaqlar arasında tez yayılan xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi istiqamətində ardıcıl işlər görülür. Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək və bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən etmək məqsədilə ölkəmizdə qanunlar, dövlət proqramları qəbul edilib.



Uşaqlar cəmiyyətimizin zərif və kövrək nümayəndələridir. Bu gün onların sağlamlığı üçün də ölkəmizdə lazım olan şərait yaradılıb. Uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri kimi, uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramları hazırlanaraq həyata keçirilib. 2006-2010-cu illəri əhatə edən "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" çərçivəsində əhəmiyyətli islahatlar aparılıb. 2014-cü il 13 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" da gənc nəslin sağlamlığının yüksək səviyyədə qorunmasında əhəmiyyətli rol oynadı. Proqram çərçivəsində respublikamızda ana və uşaqların sağlamlığının qorunması sahəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, doğuşayardım tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, uşaqlara, o cümlədən yenidoğulmuşlara, körpələrə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəliliyi yaxşılaşdırılıb. Zəruri vəzifələrin həyata keçirilməsi davam etdirilir. "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı da uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının minimum keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, saxlanması kimi tələblərə cavab oldu. Süni qida məhsullarına dövlət nəzarəti təşkil olunub, uşaqların ana südü ilə qidalanmasının müdafiəsi məqsədi ilə analara maddi, hüquqi, tibbi-sosial təminat verilib. Uşaqların sağlam həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atılır. Bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da uşaqların ana südü ilə qidalanmasına çağırışlar edir.







Belə ki, ÜST körpənin altı aylıq yaşına qədər yalnız ana südü ilə qidalanmasını, sonra isə uyğun tamamlayıcı qidalarla birlikdə ən azı iki ilə qədər ana südü verməyə davam etməsini tövsiyə edir. Ana südü yeni doğulmuş körpələr üçün yalnız ən yaxşı qidalanma deyil, həm də xəstəliklərin qarşısını almaq üçün güclü bir vasitədir. Avqustun 1-dən 7-dək dünyanın bütün ölkələrində "Ümumdünya ana südü ilə qidalanma həftəsi" keçirilir. Məqsəd ana südünün körpələri bir çox xəstəlikdən qoruya biləcəyini geniş ictimaiyyətə izah etməkdir. Bu, gələcəyimiz olan uşaqların sağlamlığına yönəlmiş bir addımdır. Ana südü körpə sağlamlığı, körpə ölümlərinin azaldılması, xroniki xəstəliklərin qarşısının alınması üçün ən əhəmiyyətli qidadır. Mütəxəssislərin qənaətinə görə, ana südü ilə bəslənən körpələrdə infeksion xəstəliklərin rast gəlmə tezliyi daha az görülməkdədir. Həmçinin ana südü alan uşaqlarda beynin inkişafı daha yaxşı gedir, allergik xəstəliklər, ishal və tənəffüs yolu xəstəlikləri və hətta irəli yaşlarda ateroskleroz, xərçəng və dağınıq skleroz kimi xəstəliklər daha az müşahidə olunur. Ana südü körpənin hər dövrü üçün olduqca əhəmiyyətlidir. Ana südü asan həzm olunan və infeksiyalardan qoruyucu xüsusiyyətlər ilə seçilən zülallarla zəngindir. Onda olan dəmir, sink kimi mineralların miqdarı, inək südü ilə müqayisədə daha çoxdur.

Sevindirici haldır ki, ölkəmizdə son illər görülən genişmiqyaslı işlər sırasında ana və uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Həyata keçirilən tədbirlər dövlətin gələcəyimiz olan uşaqlara qayğısının təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# XİN-dən İrana cavab: "Bu iddiaların heç bir əsası yoxdur"

## XİN İranın Xarici İşlər Nazirliyinin mətbuat katibinin Azərbaycanda həbsdə olan İran vətəndaşları ilə bağlı iddialarına münasibət bildirib



"İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqainin guya Azərbaycanda İran əsilli məhbuslarla pis rəftar edilməsi ilə bağlı iddialarının heç bir əsası yoxdur. "Konsulluq əlaqələri haqqında" 1963-cü il tarixli Vyana Konvensiyasının müddəalarına uyğun olaraq, ölkəmizdə saxlanılan və həbs edilən bütün İran İslam Respublikası vətəndaşları haqqında məlumatlar İran tərəfinə rəsmi qaydada təqdim edilib." AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin məsələ ilə bağlı şərhində yer alıb.

A.Hacızadə, həmçinin bildirib: "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin penitensiar müəssisələrində saxlanılan, İran İslam Respublikasının vətəndaşı olan məhkum və həbs edilmiş şəxslərin hüquqları, qanuni mənafeləri və şəxsi təhlükəsizlikləri qorunur, onlar zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar.

Qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq, məhkum və həbs edilmiş şəxslər telefonla danışmaq, bağlama almaq, ailə üzvləri ilə görüşmək və telefonla danışmaq hüquqlarından istifadə edirlər. Bəzi penitensiar müəssisələrdə İran İslam Respublikası vətəndaşı olan məhbuslara ailə üzvləri ilə video görüntü əsasında görüşlərin keçirilməsi imkanı yaradılıb.

Həbsdə saxlanılan əcnəbilər, o cümlədən İran İslam Respublikasının vətəndaşları mütəmadi olaraq tibbsanitariya bölməsində müayinələrdən keçirlər. Bununla yanaşı, İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin əməkdaşları tərəfindən öz vətəndaşları üçün gətirilmiş dərman preparatları tibb xidmətinin əməkdaşları tərəfindən normativ aktların tələblərinə uyğun qaydada qəbul edilib və məhkumlara çatdırılıb.

Yalnız 2025-ci ildə İran İslam Respublikasının Səfirliyinin əməkdaşları ilə penitensiar müəssisələrində cəza çəkən 37 nəfər İran İslam Respublikasının vətəndaşları arasında konsul görüşünün keçirilməsi üçün şərait yaradılıb. Son olaraq belə görüş iki İran vətəndaşı ilə 31 iyul tarixində baş tutub.

Azərbaycan tərəfinin həmçinin bir sıra İran vətəndaşları ilə bağlı humanistlik nümayiş etdirdiyi İran tərəfinə yaxşı məlumdur. Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 26 may 2025-ci il tarixli Sərəncamı ilə 5 nəfər İran vətəndaşı əfv olunub.

Bu tədbirlərə baxmayaraq, İran İslam Respublikasında saxlanılan və həbs edilən əksər vətəndaşlarımız barədə məlumatlar Azərbaycan Respublikasının İran İslam Respublikasındakı diplomatik missiyalarına təqdim edilmir, vətəndaşlarımıza əksər hallarda İran İslam Respublikasındakı Azərbaycan Respublikasının diplomatik missiyaları və ailə üzvləri ilə görüşməyə və telefon əlaqəsi qurmağa, 1998-ci ilin 21 fevral tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran islam Respublikası Hökuməti arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında Müqavilə"nin müddəalarına uyğun olaraq cəzasının qalan hissəsini Azərbaycan Respublikasında çəkmək üçün müraciətin təqdim edilməsinə icazə verilmir. Eyni zamanda, sorğu olunmasına baxmayaraq Azərbaycan Respublikası vətəndaşlarının işləri ilə bağlı İran İslam Respublikasında keçirilən məhkəmə iclasları, həmin iclaslar zamanı qəbul edilən qərarlar barədə Azərbaycan tərəfinə məlumat verilmir.

Ölkəmiz hər zaman bu kimi məsələlərin siyasiləşdirilmədən, ikitərəfli müstəvidə, diplomatik kanallarla müzakirəsinin tərəfdarı olub. Digər məsələlərlə yanaşı bu istiqamətdə danışıqlar 15 aprel 2025-ci il tarixində Tehran şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri zamanı aparılıb".

# Rusiyaya daha bir zərbə

## *OPEC+ neft hasilatında aktivləşir*




***Bazar günü OPEC+ üzvü olan səkkiz ölkə sentyabr ayında hasilatı avqustda tələb olunan hasilat səviyyəsindən gündəlik 547 min barel (bpd) azaltmağa razılaşıb. Bu, dörd aylıq əlavə ödənişə bərabərdir, təşkilat öz saytında bildirib. Bu, əvvəllər qüvvədə olan sutkada 2,2 milyon barel həcmində könüllü azalmalar paketinin tam ödənilməsi deməkdir. İlin sonuna qədər iştirakçılar başqa bir məhdudiyyəti də geri götürə bilərlər - 1,65 milyon barel. Analitiklər gözləyirlər ki, ilin sonuna qədər bazar artıq təkliflə üzləşə bilər. Bu arada geosiyasi faktorlar qiymətləri yüksəltməkdə davam edir.***

OPEK-in məlumatına görə, Rusiya kompensasiya planını nəzərə almadan avqustda hasilatı sutkada 9,449 milyon barelə, Səudiyyə Ərəbistanını isə 9,976 milyon barelə qədər artıra biləcək. OPEC+-a həmçinin İraq, BƏƏ, Küveyt, Qazaxıstan, Əlcəzair və Oman daxildir. Bildirilir ki, hasilatın artırılması ilə bağlı qərar aşağı neft ehtiyatlarında əks olunan əlverişli cari bazar göstəriciləri səbəbindən verilib. Təşkilat həmçinin ötən il dekabrın 5-də 2025-ci il aprelin 1-dən könüllü olaraq 2,2 milyon barel həcmində düzəlişlərə tədricən və çevik qayıdışa başlamaq qərarına istinad edib. Kartel vurğulayır ki, istehsala əlavə könüllü düzəlişlərdən mərhələli imtina dəyişən bazar şəraitindən asılı olaraq dayandırıla və ya ləğv edilə bilər. İclas zamanı ölkələr həmçinin 2024-cü ilin yanvar ayından etibarən hər hansı artıq hasilat həcmini tam şəkildə kompensasiya etmək niyyətlərini təsdiqləyiblər. Beləliklə, OPEC+ ölkələrinin sentyabr ayı üçün ümumi kvotası sazişi pozanlardan kompensasiya nəzərə alınmaqla sutkada 37,556 milyon barel təşkil edəcək ki, bu da avqust ayı ilə müqayisədə sutkada 528 min barel çoxdur. Bu, sutkada 2,2 milyon barel həcmində könüllü azalmalar paketinin tam ödənilməsini qeyd edəcək.

Bundan əlavə, görüşdə 2025-ci ilin sonuna qədər daha bir cari hasilat həddi - 1,65 milyon barelin geri qaytarılması imkanının müzakirə edildiyi bildirilir (bunun altında Səudiyyə Ərəbistanı və Rusiya gündəlik hasilatı 500 min barrel azaldıb). Beləliklə, müqavilə bir il əvvəl geri alınacaq. Görüş ərəfəsində bildirilib ki, ölkələr neft hasilatının icazə verilən maksimum səviyyəsini sutkada daha 548 min barel artırmaq barədə prinsipial razılığa gəliblər.

Yada salaq ki, OPEC+-ın 19 iştirakçısından 8-nin kvotalara əlavə olaraq, 2026-cı ilin sonuna qədər qüvvədə olan 1,65 milyon barellik könüllü hasilat azaldılması var. Bundan bir az sonra - daha 2,2 milyon barel tətbiq edilən məhdudiyyətlər də var. Hasilatın artırılmasının il yarım çəkəcəyi planlaşdırılırdı. Aprelin əvvəlində OPEC+-ın səkkiz iştirakçısı may ayında məhdudiyyətlərdən çıxışı sürətləndirmək və may ayında neft hasilatını birdən-birə 411 min barel artırmaq qərarına gəlib. OPEC+ qərarını sağlam bazar və qlobal iqtisadiyyat üçün sabit perspektivlərlə izah edib. İyun və iyul aylarında da analoji qərar qəbul edilib.

Ekspertlərin fikrincə, kartelin hərəkətləri OPEC+-nın neft qiymətlərini qorumaqdan neftin bazara çıxışının açılmasına keçidini göstərir. Xüsusilə, onlar xatırladırlar ki, kartelin aprel qərarı qara qızılın qiymətini son dörd ilin minimum səviyyəsinə endirdi. Yayda artan tələbat sayəsində neft bərpa olundu. Eyni zamanda, analitiklər bazarın ilin sonuna qədər təklif profisiti ilə üzləşə biləcəyini və bunun da qiymətlərə təsir edəcəyini gözləyirlər. Bu arada ABŞ prezidenti Donald Trampın Rusiyadan enerji alan ölkələrə ikinci dərəcəli sanksiyalar tətbiq etməklə hədələməsi kimi geosiyasi amillər qiymətləri yüksəltməkdə davam edir.

Bundan əvvəl Amerika lideri Hindistanın ABŞ-la ticarət müqaviləsi bağlamaq üçün Rusiyadan neft almasını dayandıracağını açıqlamışdı. O, cümə günü Vaşinqton və Yeni Dehli arasında ticarət danışıqlarını şərh edərkən, "Mən başa düşdüyüm qədər, Hindistan artıq Rusiyadan neft almayacaq. Eşitdiyim budur. Bilmirəm, bu doğrudur, ya yox". "Bu, yaxşı addımdır. Görək, işlər necə inkişaf edəcək", - ABŞ administrasiyasının rəhbəri əlavə edib. O, Hindistanın "Çinlə birlikdə" Rusiyanın enerji resurslarının ən böyük alıcısı olduğuna da diqqət çəkib. Bununla bağlı Trampın sözlərinə görə, Hindistandan ABŞ-a idxala 25% gömrük rüsumu tətbiq olunacaq. Bundan əlavə, Tramp 50 gün ərzində Ukraynada nizamlanmaya dair razılaşma əldə olunmasa, ABŞ-ın Rusiya və onun ticarət tərəfdaşlarına təxminən 100% idxal rüsumları tətbiq edəcəyi ilə hədələyib. Tramp daha sonra bu müddəti 10 günə endirdi.

Eyni zamanda, Hindistan idxaldan yüksək səviyyədə asılılığı ilə dünyada neftin üçüncü ən böyük istehlakçısıdır. Hindistan neft emalı zavodları xammalı 30-dan çox ölkədən, o cümlədən Rusiyadan alır. Hindistanın neft və qaz naziri Hardeep Singh Puri qeyd etdiyi kimi, Moskva ilə Yeni Dehli arasında əməkdaşlıq xüsusilə enerji sektorunda yüksək səviyyədə qalır və hətta beynəlxalq qeyri-sabitlik fonunda da inkişaf edir. Respublikanın idxalının ümumi həcmində Rusiyanın payı ardıcıl olaraq 30%-i ötür.

Bəzi ekspertlər iddia edirlər ki, Rusiya Federasiyasından nefti əvəz edəcək heç kim yoxdur. Hindistan neft emalı zavodları, Trampın ikinci dərəcəli sanksiyalar şəklində böyük rüsumların tətbiqi ilə bağlı xəbərdarlıqlarına baxmayaraq, Rusiya neftini almağa davam edir. Hindistanda bu, xüsusilə onunla izah olunur ki, Rusiyadan dünya bazarına sutkada 9,5 milyon barel tədarük dayandırılsa, neftin qiyməti bir barel üçün 135-140 dollara qalxa bilər. Onun sözlərinə görə, böyük həcmdə heç nə yoxdur".

"Rusiya təkcə neft deyil, qlobal enerji ehtiyatları tədarükçüsüdür. Rusiya qlobal neft ixracının 10%-ni təşkil edir. Bazarda tədarükdə kəskin azalma olmaması vacibdir", - deyə OPEK-in baş katibi Haitham əl-Qais Rusiyanın enerji resurslarını ABŞ-da satın alan ölkələrin mallarına 500% rüsumun tətbiqinin mümkün nəticələri ilə bağlı sualı cavablandırıb. Rusiya mühüm xammal tədarükçüsü və istehsalçısıdır. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, ölkə iyun ayında təxminən 9,2 milyon barel hasil edib. Qlobal qara qızıl hasilatı sutkada 97 milyon barelə yaxınlaşır.

Hindistan və Rusiya KİV-ləri mənbələrə istinadən bildirirlər ki, Hindistanın dövlət neft emalı zavodları Rusiya tədarükçülərindən neft almağa davam edir və ölkə hakimiyyəti Rusiyadan neft almağı dayandırmaq üçün "neft şirkətlərinə heç bir göstəriş verməyib". "Təchizatla bağlı qərarlar qiymətdən, xam neftin növündən, ehtiyatlardan, logistikadan və digər iqtisadi amillərdən asılıdır", - agentliyin mənbələri vurğulayır. Onlar həmçinin qeyd ediblər ki, Hindistan neft şirkətləri Rusiya nefti üçün ABŞ-ın tövsiyə etdiyi 60 dollarlıq qiymət həddinə tam əməl edir. Hindistanın Rusiya neftini alması isə enerji sabitliyinə müsbət töhfə verib. "Əgər Hindistan Rusiya neftini endirimlə qəbul etməsəydi, OPEC+-ın gündəlik hasilatı 5,86 milyon barrel azaltması ilə birlikdə, qlobal neft qiymətləri 2022-ci ilin mart ayının zirvəsi olan 137 dollar/bareldən xeyli yuxarı qalxa bilərdi", - Hindistan rəsmiləri bildirib.

Sənaye analitikasına görə, 2025-ci ilin birinci yarısında Rusiya Hindistana təqribən 1,75-1,8 milyon barel neft tədarük edib ki, bu da bir il əvvəlkindən 1% çoxdur. Bu, 2024-cü ilin iyul ayından bəri ən yüksək səviyyədir. Altı ay ərzində idxalın həcmi 318 milyon barreli keçə bilər, analitiklərin hesablamalarına görə, bir barel üçün təxminən 69 dollar olan orta ixrac qiyməti əsasında bu, pul ifadəsində 22 milyard dollara yaxınlaşır. Bütün ötən il ərzində Hindistana neft tədarükündən əldə olunan gəlir 40 milyard dolları ötüb.

Bununla belə, Hindistanın neft emalı zavodları hazırda Aİ-nin yeni sanksiyaları fonunda Rusiya neftinin alışını diversifikasiya etməyə çalışır, Qərb agentlikləri qeyd edir. Xüsusilə, Hindistan neft şirkətləri artıq Azərbaycan neftini, Qərbi Afrika neft növlərini, o cümlədən Nigeriya və BƏƏ-nin qabaqcıl dərəcəli Murban neftini almağa başlayıblar. Qərb agentlikləri həmçinin bildiriblər ki, Hindistan neftayırma zavodları son bir həftə ərzində Rusiya neftini almaqda maraqlı olmayıb. Mənbələrə görə, Rusiya neftini mütəmadi olaraq alan dörd neftayırma zavodu, Murban kimi Yaxın Şərq markalarına keçib. Hindistanın qərb sahillərində Rusiya xammalı olan ən azı dörd neft tankerinin gözlədiyi də bildirilib. Hazırda dünya bazarının onda birini əvəz etmək olduqca çətindir, demək olar ki, qeyri-mümkündür. Neft treyderləri də buna inanmırlar. Əsas istehlakçı ölkələr tərəfindən Rusiyanın enerji resurslarının alışının başa çatması ilə bağlı etibarlı siqnallar yoxdur. Rusiya neftinin şərti olaraq "kəsilməsi" inflyasiyanı ilk növbədə ABŞ və Aİ-nin özlərində sürətləndirmək təhlükəsi yaradır.

***V.VƏLİYEV***



MƏTANƏT

# Sosial şəbəkələrdə böyüyən uşaqlar...

***Biz özümüz də fərqində olmadan uşaqlarımızın başına olmazın müsibətlərini açırıq. Onları sosial şəbəkələrdə reklam etməklə, nə qazanırıq, deyə bilmərəm, lakin bunun heç də doğru olmadığını əminliklə söyləyə bilərəm.***

Gül kim uşaqları milyonların qarşısına çıxarıb onların o gözəl üzünü, gülüşünü, hərəkətlərini göstərəndə nə olur ki, görəsən? Bir də görürük ki, uşaq durduğu yerdə elə bir xəstəlik tapdı ki, gəl, görəsən? Qalırıq xəstəxanalarda, həkimlərdə. İndi gəl, insanları başa sal ki, hər gözdə, hər nəfəsdə bilmədiyimiz mənfi bir qüvvə var...

İndi dəbdir, uşaq doğuldumu, xəstəxanadan çıxarılandan sosial şəbəkələrdədir. Bir ayından bir yaşınadək hər ayın tamamında xüsusi fotosessiyalarla yenə də sosial şəbəkələrdədir. Bir yaşından sonra isə uşaqların başına açdığımız bu oyunların miqyasını daha da genişləndirib onların reklamını aparmağa başlayırıq.

Uşağı danışdırıb video çəkirik, güldürüb video çəkirik, ağladıb yenə video çəkirik, soyundurub çəkirik, geyindirib çəkirik. Yedirdib çəkirik, yeməyi ağzına yaxınlaşdırıb çəkir, onu ağladır, çəkirik.

Daha sonra qarşılarındakı ana, nənə, bibi, xala, ata, dayı, əmidirmi, bilmirəm, uşaqları danışdırmaq üçün suallar yağdırır. Bu sualların qarşısında isə uşaqlar bəzən aqressivləşir, bəzən şirin-şirin cavablar verir, bəzən əzilib-büzülür, gülür... Bütün bunlardan isə həmin o valideyn və qohumlar əməlli-başlı istifadə edir.

Vallah, sözün bitdiyi andır bu mənzərələrin hər biri. Nə deyəsən, bilmirəm. Sadəcə düşünürsən ki, hə, bunun başqa bir tərəfi də var axı. Çoxları belə videolarla sosial şəbəkələrdən pul qazanır. Lakin pul hər dərdin dərmanıdırmı məgər? Pul qazanmaqdan ötrü uşaqları nə üçün reklam etməliyik? Pul qazanmaqdan ötrü nə üçün milyonlarla uşağın mənəvi-psixoloji vəziyyətinə xələl gətirən videolar paylaşmalıyıq?..

Bir də ki, hərəkətlərimizlə uşaqlarımızın gələcəkdə utanmasına şərait yaradırıq, bunu düşünən varmı? Bu gün sosial şəbəkələrdə paylaşdığımız videolar uşaqlarımız böyüyən zaman onlar üçün problem yaradacaq. Bu videoları görən sinif yoldaşları, dostları, rəfiqələrinin lağlağılıq etməyəcəklərinə kim təminat verə bilər. Belə olan halda isə uşaqlarımız bir-biri ilə dalaşacaq, biz də onları qarşımıza qoyub "ay bala, sizin bir-birinizlə dərdiniz nədir axı?",- deyib ittiham edəcəyik. Və yaxud da məktəbə gedib direktordan tutmuş sinif rəhbərinədək hamısını məsələyə qatacağıq.

Lakin bizə bir sual verən olacaqmı ki, axı bu məsələlərin kökündə nə dayanır? Bəli, məsələnin kökündə bəzi böyüklər dayanır. Hərəkətini, yeri gələndə nə etdiyini, nə danışdığını bilməyən böyüklər. Uşaqların axı sosial şəbəkələrdə nə işi var? Necə qıyırsınız onlara? Nə üçün gül kimi uşaqlarımızı bütün dünya görməlidir? Onlardan istifadə etmədiklərini haradan bilirsiniz?

Milli-mənəvi dəyərlərimizi məhz etdiyimiz bu sosial şəbəkələrə övladlarımızı da alət etməyək. Onların körpəliyini, uşaqlığını əllərindən almayaq. Real həyatda böyümələri tərəfində olaq. Axı bizim uşaqlar nə üçün sosial şəbəkələrdə böyüməlidir? Sonra onları oradan qopara biləcəyikmi?..

# Tarixi zəfərə imza atan partiya

***Azərbaycan çətin, ağır sınaqlardan keçsə də, nəhayət, böyük qələbələrə imza atmağı bacarıb. Çünki Azərbaycan xalqı mətin, mübarizə aparmağı bacaran xalqdır. Xüsusilə də Azərbaycan xalqı yaxşını pisdən seçməyi, ona böyük qələbələr, zəfərlər bəxş etmiş liderinə təşəkkürlər etməyi, siyasətini və ideyalarını yaşatmağı bacaran xalqdır.***




1990-1993-cü illərdə Azərbaycanda ağır, üzücü çətinliklərin olduğu hər kəsə məlumdur. Ancaq xalq bu ağır, çətin dövrdə birləşməyə nail oldu. Bu birliyi, bərabərliyi, vəhdəti yaradan isə onun Dahi Lideri Heydər Əliyev idi. Məhz Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində müxtəlif qruplara, mərkəzlərə bölünmüş xalqı bir bayraq altında toplaya bildi. Dövlətin inkişafı, dağılmış iqtisadiyyatın bərpası isə böyük zəhmət, əmək sərf etsə də, yenə də Ulu Öndərimiz Heydər Əliyev qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirdi.

Təbii ki, dövlət müstəqilliyimizin möhkəmlənməsində, sosial-iqtisadi inkişafın yüksəlməsində Ulu Öndərimiz Heydər Əlievin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının da müstəsna rolu və yeri var. YAP çətin, ağır dövrdə yaransa da, Dahi Öndərimiz Heydər Əliyevin müdrik qərarları, uzaqgörən siyasəti ilə bütün çətinlikləri aradan qaldıraraq Azərbaycanı sabit, inkişaf edən dövlətə çevirdi. Qısa müddətdə YAP cəmiyyətin aparıcı partiyasına, Cənubi Qafqazın lider partiyasına çevrildi.

## "Səs" qəzeti vasitəsi ilə Ulu Öndərimizə olunan müraciətdə deyilirdi

Söz yox ki, o dövrü xatırlayarkən göz önünə Yeni Azərbaycan Partiyasının necə çətinliklərl, ağır prosesləri dəf etməsi gəlir. O dövrdə hakimiyyəti zəbt etmiş qüvvələr problemləri həll etmək gücünə və imkanına malik deyildilər. Çünki onlar siyasi baxımından təcrübəsiz, dövlət idarəçiliyində isə heç bir anlayışları olmayan şəxslər idilər. Vəziyyətin ağır olmasından istifadə edən erməni hərbi birləşmələri bir sıra ölkələrin hərbi, siyasi dəstəyinə arxalanmaqla ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə, AXC-Müsavat iqtidarı küçələrə çıxıb pozulmuş hüquqlarının, tapdanan haqlarının, sıradan çıxmaqda olan dövlətçiliyinin bərpasına və inkişafına çağırışlar edən xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə susdurmağa çalışırdı. 1993-cü ilin iyununda baş verən Gəncə hadisələri ölkədaxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarılması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı və "Səs" qəzeti vasitəsi ilə Ulu Öndərimiz Heydər Əliyevə ünvanlanan "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətdə deyilirdi: "Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar".

## Xalqın çağırışına səs verən lider

Dahi Öndərimiz Heydər Əliyev hər zaman xalqın yanında idi, xalqın və dövlətin üzləşdiyi çətinlikləri gördü. Ona görə də, Ümummilli Lider Heydər Əliyev "Səs" qzeeti vasitəsi ilə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli "Yeni, müstəqil Azərbaycan uğrunda" adlı cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis yığıncağı keçirərkən zalda cəmi 550 nəfər vardı. Bu gün isə YAP-ın 850 mindən çox üzvü mövcuddur. Partiya kəmiyyət və keyfiyyət baxımından inkişaf edərək Cənubi Qafqazın lider Partiyasına çevrilib. 2022-ci il noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyamızın yaranmasının tarixi hadisə olduğunu bildirdi: "O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında görürdülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı".

Dahi Öndərimiz Heydər Əliyevin nüfuzu Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəkləri yaratmasına imkan yaratdı. Ölkə dağılmaq ərəfəsində olduğu çətin vaxtda xalq birlik və bərabərlik nümayiş etdirək Ulu Öndər Heydər Əliyevdən Bakıya gəlməyi və onları bəlalardan xilas etməyi xahiş etdi. Dahi Öndər 1993-cü il iyunun 9-da xalqın çağırışına səs verərək Bakıya qayıtdı. Ulu Öndər Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Aparılan düzgün, müdrik siyasət nəticəsində sosial, iqtisadi inkişafa nail olundu, sabitlik təmin edildi, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə əməkdaşlıq əlaqələri quruldu. Xalq bu böyük xidməti lazımınca qiymətləndirdi. 1993-cü il oktyabrın 3-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqının mütləq əksəriyyətinin Dahi Öndərimiz Heydər Əliyevə səs verərək Onun Prezident seçilməsini dəstəklədi. Prezident seçkilərində 3 milyon 966 min 327 seçicinin 3 milyon 919 min 923 nəfəri, yaxud 98,84 faizinin seçimi Ulu Öndərimiz Heydər Əliyev oldu.

Prezident seçkisi ərəfəsi xalqla görüşündə Ulu Öndərimiz Heydər Əliyev demişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur".

## YAP dünya siyasət arenasında mövcud olan çoxpartiyalar arasında seçilən, tanınan, nüfuza malik partiyalardandır

Ulu Öndərimizin xalqımızın böyük dəstəyini qazanmaqla prezidet seçilməsi ölkəmizdə bütün sahələrdə inkişafın, tərəqqinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə Azərbaycan iqtisadi sahədə yeni və mütərəqqi uğurlara imza atdı. Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Birmənalı mövqe ondan ibarətdir ki, əfsanə kimi görünən "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin imzalanması ilə Dahi Öndərimiz Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı. 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə 5 fəsil 159 maddədən ibarət olan müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Sonrakı mərhələ də çoxpartiyalı sistem əsasında parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) təsisatı yaradıldı. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılması hüquqi əsasda təsbit etmiş oldu. Eyni zamanda, 1993-cü ildən Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu.

Uğurlar, qürurverici nailiyyətlər davam edir. Qələbələrin ən yüksək zirvəsi isə Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezident, Fateh Sərkərdə İlham Əliyevin Komandanlığı ilə 30 il erməni işğalı altında qalan torpaqlarımızın azad edilməsidir. Bu hərbi, siyasi, diplomatik qələbə ilə Prezidet İlham Əliyev "ata" vəsiyyətini layiqincə yerinə yetirmiş oldu. Artıq münaqişə yoxdur. Ziddiyyətli problemlərdən də uzağıq. Bu gün ərazi bütövlüyü və suverenliyi bərpa olunan güclü və qüdrətli Azərbaycan var. Qələbələri bizlərə bəxş edən Ulu Öndərimiz Heydər Əlievin əsasını qoyduğu siyasət və bu siyasəti nöhtəşəm şəkildə davam etdirən və həyata keçirən Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Təbii ki, qələbələrin əldə olunmasında YAP-ın da özünəməxsus payı var. Bu baxımdan qətiyyətlə demək olar ki, bu gün nəinki Azərbaycanda, ümumiyyətlə, keçmiş sovet respublikaları arasında Yeni Azərbaycan Partiyasına altenativ ola biləcək partiya yoxdur. YAP dünya siyasət arenasında mövcud olan çoxpartiayalar arasında seçilən, tanınan, nüfuza malik partiyalardandır. Yeni Azərbaycan Partiyası öz potensialı, real addımları və bacarıqlı kadrları ilə bundan sonra da inkişaf edəcək və xalqa, dövlətə xidmət etməklə yeni-yeni parlaq qələbələr qazanacaq.

***İLHAM ƏLİYEV***

# Əli Kərimli dəstəbaşı statusunu itirir



O gün təsadüfən sosial şəbəkələrdə AXCP sədri Əli Kərimlinin ənənəsinə uyğun olaraq sayıqlamalarını əks etdirən videosuna rast gəldim. Deyirdi ki, Paşinyan yaxşı rəhbərdir. Onunla əlaqələri inkişaf etdirmək və sülh müqaviləsinin imzalanmasını tezləşdirmək lazımdır. Həm də iddia edirdi ki, Paşinyan guya demokratik prinsiplərə dəyər verən baş nazirdir.

Açığı Əli Kərimlinin sözlərinə güldüm. Düşündüm ki, yəqin ki, Ə.Kərimlini danışdıran onun günvurmadan ağlını itirməsdir. Yəni havaların normadan artıq isti keçməsi onsuz da düşüncəsində problemləri olan Ə.Kərimlinin başına əməlli-başlı təsir edib. O da erməni təəssübkeşliyinə uyğun olaraq sayıqlamalar səsləndirir.

Paşinyan o məxluqlardandır ki, ölkəsində söz deyənin dilini kəsdirir, tənqidi fikirlər söyləyənləri türmələrdə çürüdür. Paşinyanı demokrat adlandıran Ə.Kərimli Ermənistanda hər gün insanların döyülüb, söyülməsindən xəbərsizdirmi? Başa düşmürmü insanlar sərbəst toplaşmaq azadlığından tamamilə məhrumdur. Bütün bu və digər faktları anlamırsa, deməli, havanın günəşli və isti keçməsindən ən çox zərbə Ə.Kərimliyə dəyib. Onun sağalması üçün payızın gəlməsi lazımdır ki, o günlərə də hələ çox var. Ona görə də payız gələnə qədər Ə.Kərimlinin çox sayıqlayacağı şübhəsizdir.

## Əli Kərimli siyasətin üz qarasıdır

Hər bir insan öz əməlinə, fəaliyyətinə görə mükafatını və ya tənqidini qazanır. Ona görə də, hər bir insan atdığı addımlarına, etdiyi əməllərinə, danışdığı sözlərinə xüsusi fikir verməlidir. Təəssüf ki, vacib hesab olunan həyati məsələlərə insan olan bəşər övladı əksər hallarda riayət etmir. Xüsusilə də, siyasətdə olub, siyasi fəaliyyətlə məşğul olduqlarını iddia edən kəslər var ki, sözdə milli və dövlətçilik maraqlarına uyğun siyasət yürütdüklərini iddia etsələr də, əməli fəaliyyətlərində öz mənafelərinə, bəzən isə hansısa kənar qüvvələrin istək və tələblərinə uyğun fəaliyyət göstərirlər. Azərbaycan siyasi səhnəsində yer alan siyasətçilərin, əsasən də partiya sədrlərinin siyasi arenadakı mövqelərini və fəaliyyətlərini səthi də olsa saf-çürük edilsə kifayət qədər qaranlıq məsələlərə, sual doğuran fəaliyyətlərə aydınlıq gətirilə bilər. Məlum olar ki, bəzi siyasətçilər, xüsusilə də, AXCP, Müsavat, Milli Şura kimi qurumların başbilənləri üzdə dövlətə, dövləti maraqlara uyğun siyasət yürütdüklərini deyirlərsə, alt qatda min bir hiylə qurmaqla erməni diasporunun mənafeyini əks etdirən siyasət aparırlar. Dəfələrlə iş başında yaxalansalar da, səhvlərindən nəticə çıxarmayıblar. Əksinə, yeni bicliklər və ağılagəlməz fənkirliklərlə əməllərini davam etdiriblər. Bu da onların xarici qarantlara sevdalı olduqlarını göstərir. Baxmayaraq ki, ictimaiyyət onları satqın və xəyanətkar fəaliyyətlərinə görə tənqid edir, iradlar səsləndirirlər. Bu azmış kimi, AXCP, Müsavat, Milli Şuranın sıravi üzvləri cəmiyyətlə həmrəylik nümayiş etdirək, Əli Kərimliyə, Cəmil Həsənliyə, Müsavatın keçmiş və indiki başqanları İsa Qəmbərin, Arif Hacılının satqın fəaliyyətlərinə ciddi şəkildə narazılıqlarını bildirirlər. Dəfələrlə narazı sıravilər sosial şəbəkələrdə rəhbər şəxslərə qarşı sərt statuslarla, videopaylaşımlarla çıxışlar ediblər.

## Ə.Kərimliyə maddi yardımlar göstərilir və qarşılığında müəyyən işlər tələb edirlər

Dağıdıcı müxalifət düşərgəsində, xüsusilə də AXCP və Milli Şura daxilində narazılıqların artması Milli Şuranın sədri Cəmil Həsənlini çıxılmaz duruma salıb. Vəziyyətdən çıxmaq üçün çıxış yolları arayan C.Həsənli Ə.Kərimli ilə söhbətlərinin birin də Milli Şuranın qapadılması təklifini çatdırıb. Lakin Ə.Kərimli Milli Şuranın bağlanmasına qarşı çıxıb və səbəbini də yayın gəlişi ilə qurumun xətti ilə aksiyaların keçirilməsi istəyi ilə əlaqələndirib. Onu da bildirib ki, USAİD-in bağlanması ilə maliyyə imkanları məhdudlaşsa da, yeni fondlarla əməkdaşlıq əlaqələri qurmaqla Milli Şuraya qrantlar ala biləcəklər. Faktın özü təsdiq edir ki, Ə.Kərimli USAİD-in bağlanmasından sonra ciddi maliyyə itkiləri ilə üzləşsə də, yeni xətlər tapacağına ümidlərini kəsməyib. Həm də görünür ona xaricdən kimlərsə mesajlar göndərib. Məlum həqiqət ondan ibarətdir ki, Əli Kərimli özünü gah siyasətçi, gah da bloger kimi təqdim etməyə çalışsa da, cəmiyyət onu xaricdəki anti-Azərbaycan qüvvələrin trolu olaraq tanıyır. Sadəcə, Ə.Kərimlinin digər trollardan fərqi ondan ibarətdir ki, xarici maraqlı dairələr birbaşa onunla işləyirlər. Yəni Ə.Kərimliyə maddi yardımlar göstərir və qarşılığında müəyyən işlər tələb edirlər. Bu əməkdaşlıq çərçivəsində Ə.Kərimli hər vəchlə çalışır ki, ətrafına daha çox trol toplaya bilsin. Ədalət naminə demək olar ki, qismən də olsa bu istiqamətdə məqsədinə nail ola bilib. Məram və məqsədlərini anlamayan pul hərisi olan Fuad Qəhrəmanlı, Seymur Həzi, İlham Hüseyn, Natiq Ədilov və digərləri vaxtaşırı olaraq xor dərnəyinin banlayan üzvləri kimi Ə.Kərimlinin şər və böhtan xarakterli paylaşımlarını bəyənir və öz səhifələrində paylaşmaqla dəstəkləyirlər. Nədi-nədi Ə.Kərimli aldığı qrantdan onlara da verir. Bu isə utancvericidir. Çünki özünə hörmət etməyi bacaran şəxs kiminsə tapşırıqlarına boyun əyib, trolluq etməz.

## Dəstəbaşlar mövqelərini itirirlər

Reallıq ondan ibarətdir ki, dəstəbaşı Ə.Kərimlinin və trollarının ölkəmizdə təxribatlar törətmək, görülən fundamental sosial, iqtisadi, hərbi, siyasi uğurları heçə endirmək cəhdləri uğursuzluğa düçar olur. Bunu əyani şəkildə azad və demokratik şəkildə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri zamanı görmək mümkün oldu. Boykot iddiaları iflasa uğramaqla bir daha cəmiyyətdə boşboğaz, xarici qüvvələri sözçüsü olduqlarını nümayiş etdirildi. Utanmazcasına seçkidən sonra özlərini seçkiləri yaxından izləyən və seçki prosesi ilə bağlı geniş bilgilərə malik məxluqlar kimi təqdim etməyə çalışdılar. Hətta "nəticələri tanımadıqları" barədə gülüş doğuran absurd iddia ilə çıxış etdilər. Hətta bu yöndə çal-çağır da etdilər. Hərəsi əlinə bir zurna alıb, nəzarətsiz zona hesab olunan sosial şəbəkələrdə statuslar yazdılar, videolar paylaşdılar. Hazırda susublar, danışmırlar. Bu da ondan irəli gəlir ki, konstruktiv mövqeyə malik müxaliflərin onları lağa qoymasından, hətta fitə basmasından nəticə çıxarıblar. Düzdür, onlar ictimai rəyin iradlarından dərs götürən məxluq olmadıqlarını hər zaman nümayiş etdiriblər. Lakin susmaqla, bir növ yanlış yol tutduqlarını nümayiş etdiriblər. Xüsusilə də əksər cəbhəçilərin Ə.Kərimlinin boykot qərarını qınamaları AXCP daxilində ciddi çalxalanmalar yaradıb ki, bu da Ə.Kərimlinin onsuz da ağır olan vəziyyətinin daha da pisləşməsinə təsir edən amillərdən hesab edilir. Susqunluqla daxili vəziyyəti nizamlamağa, bir növ təlatümlü vəziyyəti sakitləşdirməyə ümid edirlər. Ancaq artıq ox yayından çıxıb, hökm sürən ağır vəziyyət AXCP və Milli Şuranın sıradan çıxaması, ən azı digər partiyalara transfer edilməsi ilə nəticələnəcək.

**İLHAM ƏLİYEV**





## "Onlar öz doğma yurdlarına qayıdaraq orada əbədi məskunlaşırlar"



"Bu gün Azərbaycan dövləti öz iqtisadi imkanları hesabına işğaldan azad olunmuş ərazilərdə sıfırdan quruculuq işləri həyata keçirir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.O bildirib ki, bu layihələr böyük meqa layihələr çərçivəsində aparılır: "Ərazilərin çoxu işğal dövründə vəhşicəsinə dağıdılıb, tamamilə yerlə-yeksan olunub. Xüsusilə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan kimi rayonlarda şəhərlər, kəndlər, qəsəbələr və yaşayış obyektləri tamamilə məhv edildiyindən orada hər şey yenidən, sıfırdan inşa olunur.Bu istiqamətdə həm yaşayış evləri, həm də sosial obyektlər - məktəblər, uşaq bağçaları, iş yerləri, zavod və fabriklər tikilir. Paralel olaraq çoxsaylı körpülər, tunellər və strateji obyektlər də istifadəyə verilir. Bu, Azərbaycanın iqtisadi və siyasi gücünü, dövlətin iradəsini bütün dünyaya nümayiş etdirir. Eyni zamanda "Böyük Qayıdış" prosesi də uğurla davam edir. Yeni salınmış şəhər, kənd və qəsəbələrə hər gün yeni sakinlər - keçmiş məcburi köçkünlər köçürülür. Onlar öz doğma yurdlarına qayıdaraq orada əbədi məskunlaşırlar.Məlum olduğu kimi, son 5 ildə bu ərazilərdə artıq 3 beynəlxalq hava limanı istifadəyə verilib. Tikilən digər iri infrastruktur obyektləri ilə birlikdə azad olunmuş torpaqlar əsl cənnətə çevrilir. Bu proseslər Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə nəzarəti və qayğısı ilə həyata keçirilir. Onlar tez-tez bu bölgələrə səfər edir, tikinti və bərpa işlərinin gedişi ilə yerində tanış olurlar.Xüsusilə qeyd edilməlidir ki, işğal zamanı ermənilər Azərbaycana məxsus tarixi abidələri və məscidləri dağıdıblar. Azərbaycan dövləti bu məsələdə də xoş məram nümayiş etdirir və həmin tarixi-mədəni irsin bərpası ilə ciddi şəkildə məşğul olur. Bu sahədə Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu var. Onun təşəbbüsü və dəstəyi ilə dağıdılmış tarixi abidələrin bərpası həyata keçirilir. Təbiidir ki, qarşıdakı illərdə də dövlətin müəyyənləşdirdiyi hədəflər istiqamətində bərpa və quruculuq işləri davam edəcək və daha çox sayda keçmiş məcburi köçkünün doğma torpaqlarına qayıdışının şahidi olacağıq".

***Günel Fərzəliyeva***

# Tolerant mühitdə birlik və həmrəylik

## Prezident İlham Əliyev: "Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi"

Azərbaycanda ökm sürən multikultiralizm və tolerant mühit, müxtəlif xalqların adət-ənələrinə, dininə hörmətlə yanaşma xalqımızın milli keyfiyyəti olmaqla yanaşı, humanizm dəyərlərinə, birgəyaşama mədəniyyətinə söykənir. Etnik qrupların sülh şəraitində yaşaması, bərabərhüquqlu fəaliyyətinə yaradılan zəmin multikulturalizmin Azərbaycan modelinin formalaşdığının göstəricisidir. Bu gün ölkəmizin demək olar ki, bütün ərazisində qeyri-xalqların nümayəndələri qarşılıqlı anlaşma və dialoq şəraitində vahid bir ailə kimi yaşayır və milliyyətindən asılı olmayaraq hər kəs bərabərhüquqludur. Humanizm prinsiplərinə əsaslanan ölkəmizdə insan ləyaqətinə xələl gətirən, ona zidd olan dinlərin yayılması və təbliğinə imkan verilmir. Mövcud qanunlar və mövcud mühit ölkəmizdə xristianların, yəhudilərin, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşamasına dəlalət edir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir".

Paytaxt Bakıda, Qubada, Zaqatalada, Qusarda, Qaxda, İsmayıllıda və digər yerlərdə müxtəlif xalqların necə sülh, dostluq şəraitində yaşadığı diqqətdən yayınmır. Hər bir məkanda etnik qrupların icmaları, mədəniyyət mərkəzləri, öz etiqad və ayinlərini yerinə yetirmək üçün olan ibadətgahlar və s. fəaliyyətdədir ki, ölkəmizə gələn qonaqlar bunu yüksək dəyərləndirirlər. Əlbəttə ki, bu gün müxtəlif dövlət qurumlarında qeyri-xalqların nümayəndələri təmsil olunur, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar.

### "AZƏRBAYCAN UĞRUNDA, LƏYAQƏT UĞRUNDA!"

Qarabağ uğrunda gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri həmrəy oldular. Azərbaycan torpaqlarının işğaldan azad olunması uğrunda müharibədə iştirk etdilər. Azərbaycan vətəndaşı olaraq bir yumruq altında birləşdilər və silaha sarıldılar. Vətən müharibəsində bütün xalqların nümayəndələri bir əsgər kimi vuruşdular, şəhid oldular. Vətən uğrunda, Qarabağ uğrunda, Azərbaycan uğrunda mərdliklə, qəhrəmancasına vuruşdular. "Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq", - deyən Cənab Prezident bildirib ki, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi: "Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax, bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik". Amma Ermənistan isə monodövlətdir. Burada hökm sürən vəziyyət erməni xislətini bir daha ortaya qoymuş olur. Prezident İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Onlar hesab edirdilər ki, bu, onların üstünlüyüdür" - deyən Cənab Prezident qeyd edib ki, hətta onların rəhbərləri və onların ictimai fəalları müharibədən, İkinci Qarabağ müharibəsindən əvvəl deyirdilər ki, Ermənistanın bir üstünlüyü var ki, burada ancaq ermənilər yaşayır, Azərbaycanda isə müxtəlif xalqlar yaşayır. Onların çirkin təbliğatı ona yönəlmişdi ki, əgər müharibə başlayarsa, burada qatmaqarışıq olacaq, xalqlar bir-birinin üzünə duracaq. Amma nə oldu? Yaşayan bütün xalqlar bir adam kimi durdular ayağa, sinələrini qabağa verdilər, düşməni təpiklə qovdular bizim torpağımızdan. Bir daha göstərdik ki, bax, bu yetişən nəsil və ənənələr nə deməkdir Bir daha demək istəyirəm, bax, biz, hər birimiz bu dəyəri qorumalıyıq və Azərbaycan siyasəti bundan sonra bu istiqamətdə aparılmalıdır və aparılacaqdır".



### DİNLƏRARASI VƏ ÇOXMƏDƏNİYYƏTLİ HARMONİYA

Azərbaycanda onlarla müxtəlif dini qurum, birlik və icmaların fəaliyyətdə olması ölkəmizdə hökm sürən bu mühiti əsaslandıran amillər sırasındadır. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və digər qurumlar ölkəmizdə sərbəst və azad şəkildə fəaliyyət göstərirlər. Bu bir daha ona əsaslanır ki, molokanlar, yəhudilər, tatlar, saxurlar, ləzgilər üçün Azərbaycanda geniş imkanlar yaradılıb. Qeyri-xalqların yaşadığı Krasnaya Sloboda, İvanovka kimi kəndlərə daima dövlətimiz tərəfindən diqqət və qayğı göstərilir. Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, Nic və İvanovka kəndləri dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Qeyd edək ki, Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qubada həmçinin dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. Qeyd edək ki, ümumiyyətlə, Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79 faizini azərbaycanlılar, 9 faizini tatlar, 6 faizini ləzgilər, 1,8 faizini yəhudilər, 1,4 faizini türklər, 1,4 faizini xınalıqlılar və 1,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur. İnkar olunmaz faktdır bu gün Azərbaycanın ictimai-siyasi həyatında xristian, yəhudi etiqadlı vətəndaşlar yaxından iştirak edir, töhfələrini verirlər.

Qətiyyətlə deyə bilərik ki, müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Terrorizmin baş alıb getdiyi dünyada, islama qarşı hücumların artdığı və islamafobiyanın gücləndiyi bir vaxtda Azərbaycan ekstre-



mizm və dözümsüzlük əleyhinə çıxış edir, kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Həqiqətən də. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

Azərbaycan Respublikasının din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulub. Dövlətin din sahəsindəki siyasəti beynəlxalq hüququn prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

Nümunə üçün vurğulayaq ki, Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində ölkəmizə köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurmasına əlverişli zəmin yaradıb. Almanların Azərbaycana ilk kütləvi köçü isə 1819-cu ilə təsadüf edir. Həmin ilin yayında Tiflisdən Azərbaycanın Yelizavetpol qəzasına köçən 194 alman ailəsi Şamxor (indiki Şəmkir) yaxınlığında iki koloniya salıblar. Sonralar Gədəbəy, Şamaxı, Bakı, Şəmkir ərazisində də alman lüteran kilsələri tikilib istifadəyə verildi. Bakıda - 28 May küçəsində yerləşən alman kilsəsi - Kirxa da onlardan biridir. Azərbaycanda yaşayan alman icması hər bazar günü bu kilsəyə gəlib, öz dualarını oxuyur, ibadət edir və söhbət aparırlar.

### CƏNUBİ QAFQAZIN ƏN MÖHTƏŞƏM MƏBƏDİ

Bu gün dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib və bu, davam etməkdədir. Azərbaycan inamlı inkişafını davam etdirir, ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır.

Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər Məscidi inşa edilib. Qeyd edək ki, xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb. Belə ki, Milli Məclis "Dini etiqad azadlığı haqqında", "Dini ekstremizmə qarşı mübarizə haqqında" qanunlar qəbul edib.

Sülhə nail olmaq imkanlarına manеə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrini görürlər. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünü cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Sülh içində yaşayan plüralist və demokratik cəmiyyətlər qurmaq üçün dağıdıcı cərəyanlara qarşı birlikdə mübarizə aparmağın vacibliyi əsas məsələ kimi bu və ya digər məsələlər müzakirə olunur.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan edilməsi bəşəri dəyərlərə olan ali münasibətin daha bir təzahürü idi. Dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Təbii ki, hər hansı bir cəmiyyətdə sosial tolerantlığın bərqərar olmasında və multikultural dəyərlərin tərəqqisində siyasi hakimiyyətin iradəsi əvəzsizdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövlət dili uğrunda ardıcıl mübarizə aparan Ulu Öndər Heydər Əliyev

“Müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.” - Ulu Öndər Heydər Əliyev.

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun sürə bilməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. Tam qətiyyətlə demək olar ki, ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi.

Ölkə rəhbərinin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit (21-ci maddə) olundu.

Azərbaycan Prezidentinin imzaladığı ”Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli, 506 saylı fərman, ”Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında” 4 iyul 2001-ci il tarixli, 76 nömrəli sərəncam, ”Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 9 avqust 2001-ci il tarixli, 552 nömrəli sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş ”Azərbaycan Respublikasının dövlət dili haqqında” qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin yüksək intellekti, zəngin



*Nigar Abasova, Azərbaycan dili və ədəbiyyat müəllimi*

dövlətçilik təcrübəsi, yenilməz məntiqi, vətəndaşlıq qeyrəti, ana dilinə misilsiz məhəbbəti mühüm rol oynayıb.

Respublikamızın çoxminli təhsil işçiləri ”Azərbaycan Respublikasının dövlət dili haqqında” qanundan, eləcə də ümummilli liderimiz Heydər Əliyevin dil siyasəti ilə bağlı imzaladığı silsilə fərmanlardan irəli gələn vəzifələrin yerinə yetirilməsində, Ulu Öndərin dövlət dili ilə əlaqədar verdiyi müdrik göstərişlərin, irəli sürdüyü müddəa və ideyaların gerçəkləşməsində yaxından iştirak edirlər. ölkəmizdə hər il ”Ana dili” günü təntənəli surətdə qeyd edilir.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda möhtərəm Heydər Əliyevin başladığı müqəddəs milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir. Milli tariximizə Heydər Əliyev epoxası kimi daxil olmuş 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması, beynəlxalq aləmin çox mötəbər məclislərinin kürsülərindən eşidilməsi ulu öndərimizin ana dilimizin inkişafına, onun sosial-siyasi və mədəni həyatda layiqli yer tutmasına göstərdiyi qayğı və diqqətin, son dərəcə dəqiq, düşünülmüş və uzaqgörən dil siyasətinin nəticəsində mümkün olmuşdur. Bu şərəfli tarixi yolun başlanğıcı hələ 1970-ci ildə BDU-nun 50 illik yubileyində o dövr üçün, kommunist rejimi üçün fövqəladə hadisə sayılan respublika rəhbərinin Azərbaycan dilində çıxışı ilə başlandı. Bu tarixi çıxış ziyalılara, bütün xalqa respublika rəhbərinin Azərbaycan dilinə qayğı və ehtiramı haqda bir xəbərdarlıq idi ki, bu proses sonralar milli özünüdərkdə müstəsna rol oynadı. Az keçmədi ki, Azərbaycan dili nüfuzlu məclislərə, dövlət əhəmiyyətli tədbirlərə yol açdı, Heydər Əliyevin qayğısı sayəsində ali məktəblər üçün dördcildlik ”Müasir Azərbaycan dili” dərsliyinə, ”Azərbaycan dilinin dialektologiyasının əsasları” dərs vəsaitinə respublika Dövlət mükafatları verildi, təhsil müəssisələrində ana dilinin tədrisinə ayrılan saatların miqdarı artırıldı, Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə ali məktəblərə qəbul planları əhəmiyyətli dərəcədə artırıldı.

Azərbaycan Respublikası Prezidentinin ”Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərmanının tələbləri baxımından ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatının tədrisi vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri barədə Respublika Təhsil Nazirliyinin 2002-ci ilin 11 iyul tarixli, 70 nömrəli kollegiya qərarında göstərilir ki, ümumtəhsil məktəbi şagirdlərinin əsl vətəndaş kimi yetişdirilməsində, onlara milli mənəvi və ümumbəşəri dəyərlərin aşılanmasında, milli mənliyinin dərk edilməsində Azərbaycan dili və ədəbiyyat fənlərinin əhəmiyyəti böyükdür. Azərbaycan dili ölkəmizin müstəqilliyə qədəm qoyması ilə dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının milli birliyinin yaradılmasında və əlaqələrinin genişləndirilməsində müstəsna rol oynayır, soydaşlarımızın ünsiyyət silahına çevrilir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad olunması, xalqın qan yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır.

Ulu Öndər Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: ”Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur”.

Ulu öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri - ingilis, alman, fransız, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi.

XX əsrin ikinci yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dilinin keşiyində durmaq Heydər Əliyevin həyat fəaliyyətinə çevrilmişdi.Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndər Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı yönündə göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır.

# Cehiz: Zərurət, yoxsa keçmişin qalığı?



Cehiz mövzusu illərdir ailə qurmaq istəyən cütlüklər və onların ailələri arasında müzakirə və bəzən də mübahisə mövzusuna çevrilir. Bir tərəfdən, cehiz ənənəsi cəmiyyətin dərin köklərinə söykənsə də, digər tərəfdən müasir düşüncəyə sahib insanlar bu anlayışa artıq fərqli yanaşırlar. Bəziləri üçün cehiz evliliyin ”şərti” kimi qəbul olunur, digərləri isə bunu sırf könüllü və imkan daxilində olan bir jest hesab edirlər. Bəs gəlin görək, bu barədə şəhər sakinləri nə düşünür. SƏS TV olaraq onlar arasında sorğu keçirmək qərarına gəldik:

SORĞU

**Şəhər sakini İsmayıl Əhmədli:** ”Gəlinin gətirdiyi cehizə bəyin anası qarışmamalıdır. Onsuz da evində əvvəldən işlətdiyi əşyaları var, gəlindən niyə tələb etsin ki? Həm də cehizə üstünlük vermək məncə, düzgün deyil. Bu, bizim köhnə adət-ənənəmizdir. Qızların cehizi elə onların əxlaqıdır”.

**Şəhər sakini Əhliman Abdullayev:** ”Heç kimin məcburiyyəti yoxdur. Onların xoşbəxtliyi cehizlədirsə, olmasa daha yaxşıdır. İki insanın vəhdəti, məhəbbəti, sevgisi olan yerdə cehiz artıq bir şeydir”.

**Şəhər sakini Rəvanə Süleymanova:** ”Məncə, cehiz vermək hüquq yox, seçim olmalıdır. Yəni heç bir ailə də qızını mal-mülk kimi verməməlidir. Cehizi isə oğlan və qız ailə qurursa, özləri almalıdır”.

**Şəhər sakini Pərvanə Əliyeva:** ”Mənə görə evlilik məsələlərində qarşılıqlı anlaşma çox önəmlidir. Valideynlər arasında da anlayış olmalıdır. Əgər maddi vəziyyət yaxşı deyilsə, qarşı tərəf bunu nəzərə almalı və təkid etməməlidir. Qarşılıqlı anlaşılma yoxdursa, bu münasibət hər halda uzun çəkməyəcək”.

**Şəhər sakini Ülviyyə Nəzərova:** ”Mən də oğlan anasıyam. Məncə cehiz hər şeyi həll etmir. Mən imkana baxmaram, qızın özü yaxşı olsun, xoşbəxt olsunlar. Gəlinim yaxşı olsa, neynəyirəm onun cehizini? Bu, maliyyə ilə bağlı deyil, bir-birlərini başa düşürlərsə, xoşbəxtlik ondadır”.

**Şəhər sakini Xalidə Kərimova:** ”Nəyə lazımdır cehiz? Bu gün bir divanla, çilçıraqla gedər, sabah villa sahibi olar. Onları bir-birinə qovuşdurmaq, mehriban etmək lazımdır. Cehiz bu dünyada qalan bir şeydir. Mən bu mövzuya çox pis baxıram, hiddətlənirəm. Mən də anayam, nənəyəm, nəvəmin nişanı olmalıdır. Əfsuslar olsun ki, belə şeylər hələ də var”.

**Şəhər sakini Arif Xudiverdiyev:** ”Qarşı tərəf nəyi desə, bəyənməsə, mən onun cavabını verərəm, yolu göstərərəm, deyərəm yolun qırağı ilə get və yaxşı yol. Mən onunla razı deyiləm, gücüm nəyə çatır, onu da alıram. 100 manatlıq soyuducu, ya da 1000 manatlıq soyuducu nə fərqi var ki? Bahalı olanda xoşbəxt olacaqlar?”.

**Şəhər sakini İsfahan Əhmədov:** ”Könül sevən göyçək olar, cehizə görə lazım deyil. Kimin gücü nəyə çatır, onu da alar. İki könül bir-birini sevməsə, alan da yazıq, gedən də yazıq. Var-dövlət, qab-qacaq lazım deyil. Mənim vaxtımda anamgil nə veribsə, biz onunla qane olmuşuq. İndi təzə trend çıxıb - qız ev alsın, maşın alsın. Ondansa oğlan gəlib evimdə yaşasın da”.

***Fatimə Əliyeva***

# Müasir Azərbaycan gəncliyinin yay istirahəti anlayışı necə dəyişib?

***Son onilliklərdə cəmiyyətin həyat tərzində baş verən dəyişikliklər Azərbaycan gəncliyinin yay istirahətinə münasibətində də ciddi dönüşlər yaradıb. Əgər əvvəllər yay tətili əsasən istirahət, dincəlmək və ailə ilə birlikdə vaxt keçirmə vasitəsi kimi qəbul olunurdusa, bu gün gənclər üçün yay ayları həm sosial tanınma, həm də özünü inkişaf etdirəcək fürsətlərin axtarışı dövrünə çevrilib. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

## Ənənəvi istirahət modeli: Keçmişin izləri

Əvvəllər yay tətili Azərbaycan gəncləri üçün əsasən kənd həyatına inteqrasiya, nənə-baba evində qalmaq, yerli yay düşərgələrinə qatılmaq və ya dostlarla təbiətdə vaxt keçirməklə xarakterizə olunurdu. Təbiətlə bağlılıq, oyunlar, fiziki aktivlik və ailə münasibətləri bu dövrün əsas elementi idi. Bu cür istirahət həm bədəni, həm də ruhu dincəldirdi və sosial bağların möhkəmlənməsinə xidmət edirdi.









## Müasir dövr: Fərdiləşmə və rəqəmsallaşma

Hazırda isə gənclər arasında yay istirahəti anlayışı daha fərdiləşmiş, rəqəmsallaşmış və urbanizasiyaya əsaslanmış bir formaya keçib. Sosial şəbəkələrin təsiri ilə gənclərin istirahəti bəzən bir növ ictimai təqdimata çevrilir. İnstagram, TikTok və digər platformalarda paylaşılacaq məkanlar, görüntülər və təəssüratlar bir çox hallarda istirahətin əsas məqsədinə çevrilir. Bunun nəticəsində isə istirahətin mahiyyəti - rahatlıq və yenilənmək - arxa plana keçir.

## İntellektual və peşəkar inkişaf tendensiyası

Müasir Azərbaycan gənclərinin əhəmiyyətli hissəsi yay aylarını yalnız istirahət üçün deyil, həm də bilik və bacarıqlarını artırmaq məqsədilə istifadə edir. Yay məktəbləri, onlayn kurslar, könüllü layihələr, təcrübə proqramları və beynəlxalq təlimlər gənclər arasında getdikcə daha da populyarlaşır. Bu, bir tərəfdən rəqabət qabiliyyətli gənc nəsil formalaşmasına səbəb olur, digər tərəfdən isə daimi "faydalı olmalıyam" təzyiqi altında emosional yüklənməyə yol aça bilir.

## Psixoloji təsirlər və sosial təcrid

Sosial media təsiri ilə ideal tətil obrazının formalaşması bəzi gənclərdə öz həyat tərzinə qarşı narazılıq, özünü dəyərsizləşdirmə və tükənmişlik hissi yarada bilər. Maddi imkanları daha məhdud olan gənclər üçün "sosial müqayisə" nəticəsində istirahət əvəzinə stres yaranır. Bundan əlavə, onlayn həyatın üstünlük qazanması real sosial münasibətlərin zəifləməsi ilə nəticələnə bilir.

## Sosial və ailə dəyərlərinin təsiri

Əvvəllər yay ayları ailə dəyərlərinin ötürülməsi və möhkəmləndirilməsi baxımından mühüm mərhələ idi. Lakin müasir gənclər arasında bu əlaqələrin zəiflədiyi müşahidə olunur. Ailə ilə birgə istirahət azalıb, fərdi seçimlər üstünlük təşkil edir. Bununla yanaşı, bəzi ailələr övladlarının yay aylarını yalnız oxumaqla və ya işləməklə keçirməsini istəyir ki, bu da istirahətin əsas funksiyasını zəiflədə bilər.

Azərbaycan gənclərinin yay istirahəti anlayışı zamanla dəyişmiş və daha çox fərdiləşmiş, rəqəmsallaşmış, inkişaf yönümlü bir forma almışdır. Bu dəyişiklik həm sosial və texnoloji inkişafın, həm də cəmiyyətin dəyərlərində baş verən transformasiyanın nəticəsidir. Lakin bu yeni modelin gənclərin psixoloji və sosial rifahına mənfi təsirlərini də nəzərə almaq vacibdir. Ona görə də balanslaşdırılmış istirahət - həm bədənin, həm zehnin, həm də sosial münasibətlərin yenilənməsi - müasir gəncliyin ehtiyac duyduğu əsas məqam kimi diqqətdə saxlanmalıdır.

## Təklif və tövsiyələr

<u>Balanslaşdırılmış istirahət təşviq edilməlidir</u>

Gənclər arasında yay aylarında yalnız akademik və peşəkar inkişaf deyil, həm də fiziki və psixoloji dincəlməyə yönəlik fəaliyyətlər təşviq edilməlidir. Dövlət və qeyri-hökumət təşkilatları yay istirahət proqramlarında bu iki elementi birləşdirən modellər inkişaf etdirməlidir.

## Gənclər üçün əlçatan yay düşərgələri və istirahət zonaları yaradılmalıdır

Hər il yay aylarında regionlarda təbiətə yaxın, mədəni və ekoloji yönümlü düşərgələrin təşkili həm gənclərin istirahətini təmin edər, həm də vətənpərvərlik, kollektivlik və sosiallaşma bacarıqlarını gücləndirər.

## Rəqəmsal istirahət təzyiqi ilə bağlı maarifləndirmə aparılmalıdır

Sosial mediada "ideal tətil" anlayışının yaratdığı psixoloji təzyiqin azaldılması üçün gənclər arasında real həyat dəyərlərinin önə çəkildiyi maarifləndirici kampaniyalar həyata keçirilməlidir. Bu, xüsusilə orta məktəb və universitet tələbələri arasında faydalı olar.

## Ailə ilə birgə istirahətin yenidən təşviqi

Ailə institutunun möhkəmləndirilməsi və nəsillərarası bağların qorunması məqsədilə ailəvi istirahət təşviq olunmalı, yerli bələdiyyələr və icmalar bu istiqamətdə sosial layihələrə dəstək verməlidir.

## Yay aylarında gənclər üçün könüllülük və ictimai faydalı layihələr artırılmalıdır

Yay aylarında şəhər və kənd icmalarında ekoloji, sosial və mədəni layihələrə könüllü cəlb proqramları gənclərin həm aktiv istirahətini, həm də məsuliyyət hissinin formalaşmasını dəstəkləyər.

## Aşağı gəlirli ailələrdən olan gənclərə dəstək proqramları

Yay istirahəti imkanlarından bərabər istifadə üçün aztəminatlı ailələrin gənclərinə təqaüdlər, subsidiyalar və pulsuz iştirak imkanı təklif edən proqramlar hazırlanmalıdır. Bu, sosial bərabərliyin təmininə töhfə verər.

## Psixoloji dəstək və stres idarəetmə təlimləri

Tətil dövründə də akademik və sosial basqı hiss edən gənclər üçün yay aylarında psixoloji dəstək mərkəzləri, onlayn konsultasiya və stresslə mübarizə üzrə qısa təlimlər təşkil olunmalıdır.

## Regionlarda alternativ istirahət imkanlarının təşviqi

Yay istirahəti anlayışı təkcə çimərlik və böyük şəhər turizmi ilə məhdudlaşdırılmamalıdır. Dağ kəndləri, mədəni irs zonaları və ekoloji məkanlara diqqət artırılmalıdır ki, həm regionlar inkişaf etsin, həm də gənclər fərqli təcrübələr qazansın.

***Ayşən Vəli***

ARAŞDIRMA



# Qlobal əməkdaşlıq körpüsü

## *Azərbaycan "dəhliz müharibəsi"ndə də söz sahibi olacaq*

Beynəlxalq səviyyədə qlobal nəqliyyat infrastrukturu ilə bağlı müzakirələrdə bütün diqqət Orta Dəhliz layihəsi ətrafında formalaşır. Çinin "Bir kəmər, bir yol" layihəsini ilk günlərdən dəstəkləyən Azərbaycan bu təşəbbüsün əsas tərəfdaşlarından olmaqla Orta dəhlizin mühüm həlqələrindən olan Zəngəzur dəmir və avtomobil yollarının açılması istiqamətində səylərini artırır. Bu məqsədlə Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun inşasına daha çox diqqət göstərilir. Dəhlizlə bağlı beynəlxalq ictimaiyyətin rəyi də belədir ki, Zəngəzur dəhlizinin bərpası ilə təkcə regionda deyil, beynəlxalq nəqliyyat- infrastrukturunda yeni reallıqlar yaranacaq. Dövlətlərarası yük və sərnişin daşımalarında ən müasir, səmərəli metodlardan istifadə etməklə əməkdaşğın şaxələndirmə formulu təkmilləşəcək. Xatırladaq ki, ümumi uzunluğu 110,4 kilometr və 8 stansiyadan ibarət olan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin gələn il istismara verilməsi nəzərdə tutulur. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi də sürətlə davam etdidir.

Respublikamızın digər bölgələri ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolunun bərpası region üçün də önəmli töhfə olacaq. Strateji əhəmiyyətli Zəngəzur dəhlizinin bərpası ilə Rusiya-Türkiyə, Rusiya-İran, Rusiya-Ermənistan arasında yaranan əlaqə ilə tərəfdaş ölkələrin siyasi, iqtisadi, ticari əməkaşlığı yeni istiqamətlər üzrə inkişaf etdiriləcək. Bu dəhliz Azərbaycanla Türkiyənin birgə layihəsi olan Bakı-Ceyhan-Qars dəmir yolu ilə yanaşı, ikinci dəmiryol xətti kimi bölgə dövlətləri arasında rabitə yaratmaqla Cənubi Avropa ilə Asiyanı birləşdirən körpü olacaq. Regionda sabitliyə və qarşılıqlı əməkdaşlığa mühüm töhfələr verən Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı həyata keçirdiyi siyasətin əsasını da birgə fəaliyyət prinsipləri təşkil edir.

III Şuşa Qlobal Media Forumunda dünyada baş verən siyasi, iqtisadi hadisələr, qlobal layihələrin birləşdirici, bağlılıq rolu ilə bağlı açıqlamaları ilə diqqəti cəlb edən Prezident İlham Əliyev Zəngəzur dəhlizinin əhəmiyyətini "Burada söhbət təkcə tranzitdən getmir. Biz dəhlizlər, dəmir yolları haqqında danışanda tranzit və tranzit ödəmələri haqqında danışdığımız düşünülə bilər. Tranzit ödəmələri, əlbəttə ki, vacibdir, o, ölkəni gücləndirə bilər. Ancaq əsas məsələ tranzit marşrutu boyu infrastrukturun və sahələrin yaradılmasıdır ki, o sahələr əlavə sərmayə cəlb edə bilər" sözləri ilə ifadə etməklə layihənin gerçəkləşməsini bölgədə sabitliyin və təhlükəsizliyin təminatı üçün başlıca şərt adlandırıb: "Bu gün regionumuz, Mərkəzi Asiya regionu, Cənubi Qafqaz, ondan Şərqdə və Qərbdə yerləşən ölkələr sabit dövlətlərdir. Xüsusilə də Qarabağ münaqişəsi başa çatandan sonra sabitlik, təhlükəsizlik və inkişaf üçün perspektivlər daha aydın və genişdir. Yəni bu, bağlılıq layihələrinin təşviqi baxımından mühüm amildir. İkinci amil qonşulara xoş münasibətlərdir. Bu olmadığı təqdirdə ölkə tranzit ölkə ola bilməz və biz burada qonşularımızla deyil, qonşularımızın qonşuları ilə də yaxşı münasibətlərə malik olmalıyıq. Bu sahədə də fəal diplomatik fəaliyyət aparılır və bizim etibarlı tərəfdaş imicimiz var." Bağlantı layihələrinin ən önəmlisi hesab olunan Zəngəzur dəhlizini çox geniş coğrafiyanı birləşdirən, Şərqdən Qərbi Avropaya qədər uzanan və müxtəlif ölkələr arasında qarşılıqlı anlaşma yaradacaq Orta Dəhlizin tərkib hissəsi adlandırıb.

Dövlət başçımız əlavə olaraq "Söhbət beynəlxalq tranzit dəhlizdən gedir. Biz nəqliyyat və logistika infrastrukturuna çox fəal sərmayə qoyuruq. Son illər milyardlarla dollar sərmayə qoyulub, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilib, indi biz onu genişləndiririk, onun yükqaldırma qabiliyyətini 25 milyon tona çatdırırıq" söyləməklə onu da vurğulayıb ki, müasir infrastrukturun qurulması nəticəsində Azərbaycan ərazisindən tranzit daşımaların həcmi artır. Həmçinin rəqəmsallaşma prosesi gedir, gömrük inzibatçılığı sadələşdirilir. Cənubi Qafqazda baş verən geosiyasi dəyişikliklər, digər tranzit marşrutların vacibliyinin aktuallışdığı məqamda Zəngəzur dəhlizinin potensialını ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndirmək təşəbbüsü iqtisadi əməkdaşlığa laiyqli töhfə kimi dəyərləndirilir.

Əhatə etdiyi coğrafi ərazi baxımından böyük əhəmiyyətə malik, Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə respublikamızın digər bölgələrini birləşdirəcək, oradan Körfəzə çıxış yolu ilə İran ərazisindən keçəcək Zəngəzur dəhlizinin reallaşması ilə Şimal-Cənub nəqliyyat dəhlizinin başqa istiqamətini də reallaşdırmaq mümkün olacaq. "Təkcə hamının haqqında danışdığı bir istiqamətə - Rusiyadan Azərbaycan vasitəsilə İrana, Rəştə deyil, həm də Şərqi Zəngəzur və Zəngəzur bölgəsinin digər hissələrindən İrana, oradan da Türkiyəyə. Ona görə də yük axınının həcminin artırılması üçün böyük perspektivlər açılır" söyləyən Prezident İlham Əliyev dəhlizlə bağlı tərəfdaş ölkələrlə aparılan danışıqların, müzakirələrin əhəmiyyətini də vurğulayıb.

Artıq Çindən Azərbaycan ərazisi vasitəsilə yükdaşımaların həcminin artması ilə bağlı proqnozlar reallaşır. Xəzər dənizinə çıxacaq Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan dəmir yolu yenidən tikilir. Bakı limanında qəbul olunan yüklərin Bakı-Tbilisi-Qars dəmir yolu ilə Gürcüstandan keçməklə Türkiyəyə və daha sonra Aralıq dənizi limanlarına Zəngəzur dəhlizivasitəsilə göndərilməsinin faydaları etiraf olunur.

Bölgənin infrastrukturunu yeniləyəcək nəqliyyat vasitələrinin maneəsiz hərəkəti ilə bağlı imzaladığı bəyanatlarla üzərinə götürdüyü öhdəliyə əməl etməyən Ermənistan hələ də Zəngəzur dəhlizinin bərpası ilə bağlı susqunluğunu, fəaliyyətsizliyini davam etdirir.

Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən Əbu-Dabi görüşündə əsas prinsipial məsələ kimi Zəngəzur dəhlizi ilə bağlı müəyyən razılaşma əldə olunsa da başqalarının rəyi ilə hesablaşan İrəvanın "tərəddüd siyasəti" gündəmdədir. Zəngəzur dəhlizinin bərpasına "səbirli" münasibət göstərən, gözləmə mövqeyi ilə tranzit ölkə şansını qaçıran Ermənistan bu məsələ ilə bağlı mövqeyini dəyişməsə təkcə nəqliyyat sahəsində deyil, müəyyən dərəcədə siyasi arenada da təcriddə üzləşəcək.

Tarixən qonşu ölkələrlə qarşılıqlı əməkdaşlıq şəraitində yaşamağa üstünlük verən Azərbaycan bu gün də mövqeyinə sadiqdir. Xarici siyasətini "Təkcə qonşu ölkə ilə deyil, qonşunun qonşusuna da hörmət prinsipi" əsasında formalaşdıran Azərbaycan Zəngəzur dəhlizinin açılmasına da humanizm, xeyirxahlıq mövqeyindən yanaşır. Torpaqlarımız 30 il Ermənistanın işğalı altında qaldığı müddətdə İslam ölkəsi olsa belə Azərbaycana qarşı riyakar siyasət yeridən, Ermənistana hər cür yardım göstərən İran İslam Respublikası dəhlizin bərpası ilə bağlı danışıqlarda da "qırımız xətt" siyasətini açıq-aşkar bəlli edir. Bölgədə sabitliyin etibarlı qarantı, infrastrukturun yenilənməsinə xidmət edən, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün etibarlı zəmin yaradan Azərbaycanın təşəbbüslərinin gerçəkləşməsinə əngəl törədir. Zəngəzur dəhlizinin açılması ilə bölgədə yeni türk birliyinin formalaşacağından qorxduğu üçün haylara Fransadan daha çox yardım edən İran bilir və bilməlidir ki, Zəngəzur dəhlizi açılacaq. Bu yolu Orta Dəhlizə böyük töhfə adlandıran Çin, Türkmənistan, Qazaxıstan, Türkiyə, Rusiya, Gürcüstan, hətta bu gün enerji böhranı yaşayan Avropanın əksər ölkələri Azərbaycana öz dəstəklərini nümayiş etdirirlər.

Fars telekanalı SNN-ə müsahibəsində Ermənistan-İran münasibətlərinin əhəmiyyətini şərh edən İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komitəsinin nümayəndəsi İbrahim Rezai Zəngəzur dəhlizi"nin bərpası ilə regionda mümkün dəyişikliklərdən narahatlıqla bəhs edib. "Əvvəla, Ermənistan bizim dostumuz və strateji tərəfdaşımızdır. İrəvanda hansı gücdən asılı olmayaraq, biz həmişə Ermənistanla ən yaxşı münasibətləri saxlamışıq" söyləyən Rezai bildirib ki, ikitərəfli görüşlərdə Zəngəzur dəhlizi məsələsi birbaşa gündəmə gətirilməsə də, Tehran prosesi diqqətlə izləyir: "Azərbaycanın israr etdikləri həyata keçərsə, qonşularımızdan birini itirə bilərik. Bu, regional geosiyasətdə İranın milli maraqlarına birbaşa zidd olan dəyişikliyə gətirib çıxaracaq". Yəni, İslam dinində hörmətlə əməl olunan "müsəlman müsəlmanın dostu, qardaşıdır" müdrik kəlamını "erməni sevgisi" ilə əvəz edən Rezainin sözlərinin izahına ehtiyac yoxdur. O, həmçinin əlavə edib ki, İran və Ermənistan həm hökumətlər səviyyəsində, həm də xalqlar arasında ticarət və sabit əlaqələri inkişaf etdirib. İrandakı erməni icması ölkənin ictimai və mədəni həyatında mühüm rol oynayır: "Niyə qonşularımızdan birini itirməliyik?" söyləyən deputatın İslam həmrəyliyinə yanaşma tərzi elə ermənicədir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı Zəngəzur (Sunik) sakinləri ilə görüşündə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirən yolun açılmasının vacibliyindən danışan Ermənistan prezidenti Vaaqn Xaçaturyan bildirib ki, əgər biz Sünikin qapılarını aça bilsək gələcək bizə inkişaf üçün böyük imkanlar təqdim edəcək. Ermənistanda da başa düşürlər ki, Zəngəzur dəhlizi Azərbaycan və Türkiyə üçün prioritetdir. Üstəlik, dəhlizin açılmasında maraqlı olan böyük güclər də var. Belə bir şəraitdə İrəvan sonsuza qədər müqavimət göstərə bilməz. Ermənistanın baş naziri Nikol Paşinyanın "sülh kəsişməsi" kimi sərsəm ideyasını əhəmiyyətsiz layihə adlandıran Prezident İlham Əliyev Ermənistanın müxtəlif üsullarla vaxt uzatmağa, beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışdığını, ölkəmizə qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac verdiyini açıqlayıb.

Bəllidir ki, rəsmi İrəvana Qərbdən, Rusiyadan kifayət qədər təzyiq göstərilir. Belə vəziyyətdə qalan Ermənistan üçün Azərbaycanla Türkiyə etibarlı nəfəsdir. Maraqları eyni olan Azərbaycanla Türkiyə kənar qüvvələrin Cənubi Qafqaza müdaxiləsinə yol verməyəcək. Belə ki, Ermənistan destruktiv ritorikasından əl çəkməli, Zəngəzur dəhlizinin açılması üçün siyasi iradə ortaya qoymalı və kənar təsirlərdən uzaqlaşmalıdır. Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, Cənubi Qafqazda Azərbaycanın rəyi olmadan heç bir layihə reallaşa bilməz. "Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur" söyləyən Prezident İlham Əliyevin dünya siyasətinin aktual problemi olan "dəhliz müharibəsi"ndə də son sözün sahibi olacağına əminlik daha inandırıcıdır

***Xuraman İsmayılqızı***

# Rusiya Pakistan və Çinə qarşı

***Hindistan və Pakistan arasında may ayında atışma mübadiləsindən sonra qurulan atəşkəs getdikcə kövrək olur. Hindistanın baş naziri Narendra Modi bildirib ki, "Dehli İslamabadın dəstəyi ilə həyata keçirilən istənilən yeni terror hücumu"na BrahMos qanadlı raket zərbələri ilə cavab verəcək. Aprelin sonunda Kəşmirin Hindistan hissəsinə sızan silahlılar 26 hindu turisti öldürüblər. Pakistanı yeni döyüş helikopterləri ilə təmin edən Çin dolayı yolla bu ikitərəfli münaqişəyə cəlb olunub. Moskva Hindistanın aparıcı silah təchizatçılarından biri olaraq qalır. BrahMos Rusiya-Hindistan birgə raketidir.***



Həm Rusiya, həm də Çin Hindistan və Pakistan arasındakı münaqişənin sülh yolu ilə həllinin zəruriliyindən danışırlar. Bu, hər iki gücün riayət etdiyi diplomatik xəttdir. Amma hərbi-texniki əməkdaşlıq sahəsi də var ki, Moskva və Pekinin bir-biri ilə ziddiyyət təşkil edən tərəfdaşları var. Çin Pakistana hərbi əməliyyatlar üçün nəzərdə tutulmuş Z-10ME helikopterləri tədarük edib. Çinin ixrac etmək niyyətində olduğu bu yeni model döyüş maşınları Himalay dağlarında Hindistanla sərhəddə də yerləşdirilib.

Aydındır ki, tərəflər silah sövdələşmələrini gizli saxlamağa çalışırlar. Buna görə də ekspert Rikardo Qrossi Avrasiya qitəsindəki vəziyyəti işıqlandıran portalda Pakistanın quru qoşunlarının dəstəyində iştirak edən Z-10ME helikopterinin görüntülərinə istinad edir. Üstəlik, bu video Pakistan ordusunun zabiti tərəfindən hazırlanıb. Pakistan-Çin münasibətlərinin bütün kontekstinə nəzər salsaq, videonun həqiqiliyinə şübhə etmək olmaz. Əfqanıstan, İran, Çinin Sincan-Uyğur Muxtar Rayonu və Hindistanla həmsərhəd olan Pakistan Pekin baxımından böyük strateji dəyərə malikdir.

Pekin və İslamabad 1950-ci ildə diplomatik əlaqələr qurublar. İslamabad həmişə Çinə Pakistanın Kəşmirlə bağlı ərazi mübahisəsi olan Hindistana qarşı çəkisi kimi baxıb. 1965-ci ildə Pakistan-Hindistan müharibəsi zamanı Pekin Pakistana hərbi yardım göstərdi. Sonradan bu qarşılıqlı əlaqə nüvə silahı sahəsinə də yayıldı. Çinin yardımı Pakistanın 1998-ci ildə ilk nüvə sınağını keçirməsinə kömək etdi. Çinin şimal-qərbini Ərəb dənizi ilə birləşdirməyi nəzərdə tutan Çin-Pakistan İqtisadi Dəhliz layihəsinin işə düşməsindən sonra iki dövlət arasında münasibətlər yeni səviyyəyə yüksəlib. Bu məqsədlə Çinin köməyi ilə Qvadar limanı genişləndirilib.



Uzunmüddətli perspektivdə dəhliz Yaxın Şərqdən neft tədarük edərkən Çinə Malakka boğazından yan keçməyə kömək etməlidir ki, bu da ABŞ-la münaqişə vəziyyətində asanlıqla bağlana bilər. Dəhliz daxilində bəndlərin, yolların və digər infrastruktur obyektlərinin dəyəri 62 milyard dollardır. Həm Pakistan, həm də Çinlə ərazi mübahisələri olan Hindistan isə iki cəbhədə silahlı toqquşma ehtimalını planlaşdırmağa məcburdur. Bu baxımdan, ölkə müstəmləkəçilikdən azad edildikdən dərhal sonra Moskva ilə başlayan əməkdaşlıq həm siyasətçilər, həm də cəmiyyət arasında geniş dəstək tapır. Modi BrahMos raketlərindən istifadənin mümkünlüyü barədə danışarkən bunu nəzərə alıb. Bu silah növünün istehsalı üzrə birgə müəssisə 1995-ci ildə yaradılıb. O, iki çayın - Brahmaputra və Moskvanın şərəfinə adlandırılıb. Tərəflər birgə raketi təkmilləşdiriblər. Əvvəlcə quru silah idi, daha sonra təyyarələrdən və dəniz gəmilərindən zərbələr üçün uyğunlaşdırıldı. May ayında isə şimaldakı Uttar Pradeş əyalətinin paytaxtı Lakxnauda bu raketləri istehsal edən zavod açılıb. Yeni model əvvəlkindən daha az çəkiyə malikdir və 300 km-dən çox məsafə qət edir, bu da onu hər iki potensial düşmənlə mübarizədə nəhəng silaha çevirir.

Hazırda Hindistanda əsas silah tədarükçüsü kimdir sualına birmənalı cavab vermək çətindir. Bu, hansı seqmentdən söhbət getdiyimizdən asılıdır. Hindistanda üç növ qoşun var və onların hər biri satınalmanı müstəqil şəkildə həyata keçirir. Bununla da Hindistanın Müdafiə Nazirliyi xarici istehsalçıların maraqlarını dəstəkləməyə çalışır. Rusiya VMS üçün əsas tədarükçü olaraq qalacaq - Fransa və İsrail üçün də, Rusiya üçün də əsas şey Ukraynada savaş bitdikdə, hərbi əməliyyatlar dayandırıldıqda, silahlar yeni bir yerə qoyulmalı olacaq. Qalib gələcək, hələ dəqiq deyil. Hindistanın "BrahMos" hücumlarının yeni bir terror aktı olacağı təqdirdə baş verməsi tamamilə mümkündür. Raketin may ayında baş verən son toqquşmalar zamanı buraxıldığına dair təsdiq var

***V.VƏLİYEV***



## F E L Y E T O N

# Ə, bunu ChatGPT alıb ey...

Ötən həftənin bazar günü, yəni avqustun 3-ü Dünya Qarpız Günü idi. Bunu Tiktok-dan öyrənən Almәmmәd, deyir, o gündən uşaqlar məndən qarpız istəyib. Durum gedim bir qarpız alım, gəlim evə, deyim ki, bax, qarpız günü münasibətilə bu da qarpız.

Çıxır, gedir küçənin başına ki, orada hər gün işdən qayıdanda gördüyü qarpız maşınına yaxınlaşsın, satıcıdan yalvar-yapış etsin ki, ə, mən ölüm, özün birini seç, ver, mənim bildiyim iş deyil bu. Nə qədər qarpız alıram, aparıram, evdə danlaqdan başqa heç nə eşitmirəm. Elə bu fikirlərlə addımlayır ki, birdən qarşısına qonşusu Bəymәmmәd çıxır. Ə, Almәmmәd hara gedirsən?

Almәmmәd də bayaqdan mən sizə söylədiklərimi Bəymәmmәdə danışır. Bəymәmmәd də deyir ki, ay Almәmmәd, sən doğrudan da keçən əsrdə qalmısan. Ə, gün açılandan gün batanadək vaxt tapan kimi Tiktokdasan, niyə sənin dünyadan xəbərin yoxdur...

Almәmmәd gözlərini döyə-döyə Bəymәmmәdə baxır, bunun nə dediyini anlamağa çalışır. Lakin Almәmmәddə bu baş nə gəzir.

Bəymәmmәd də görür ki, Almәmmәdin anlamaqdan əsla nəsibi yoxdur, başlayır söhbətə: ə, Almәmmәd, indi nə dövrdür ki, sən özün qarpız seçirsən? Ə, yazıq, indi hansı dövrdür ki, sən gedib, satıcıdan xahiş edirsən, o da özünü çəkir qoyur dağın başına... Ə, ChatGPT nə işə yarayır bəs?

Almәmmәd bu dəfə gözlərini bərəldib fikrə gedir. Sanki gözləri hələqəsindən çıxacaq bu saat. Deyir, ay Bəymәmmәd, ChatGPT-nin qarpızla nə əlaqəsi?

Bəymәmmәd özünü Almәmmәdin başına bir qapaz endirməkdən zorla saxlayır və deyir:

-Ə, zalımın oğlu, bəs indi hamıya qarpızı ChatGPT alır da, sənin bəs nə vaxt xəbərin olacaq dünyadan?

Almәmmәdin bu dəfə gözləri lap başına qalxır: ə, nə danışırsan?

Bəymәmmәd də heç haqqında danışdığı satıcılardan geri qalmır, elə qürrələnir ki, deyərsən bəs alçaq dağları bu yaradıb:

-Bəs nə, ə, qarpızların şəklini çəkirsən, atırsan ChatGPT-yə, o, seçir, sən də alırsan. Neçə dəfə belə almışam, aparıb kəsmişik, ailəliklə ChatGPT-nin canına dua etmişik. Ə, necə olub ki, bu, Tiktokda sənin qarşına çıxmayıb? Axı başına daş düşməsin, Tiktokda bilirsən də nələrə baxırsan, ona görə də onlardan başqa heç nə çıxmır qarşına.

Almәmmәd bunu eşidəndə bir qədər qürrələndi, sanki çox böyük bir iş bacardığından Bəymәmmәdin də xəbərinin olmasının sevincini yaşadı... Və Bəymәmmәdə:

-Ə, qardaş bunun sirrini mənə də öyrət, sən balalarının canı.

Birlikdə yolandılar qarpızsatanlara tərəf.

Bəymәmmәd qarpızların şəklini çəkdi, göndərdi ChatGPT-yə. Birazdan ChatGPT-dən cavab gəldi. Qarpızı alıb evə tərəf qayıtdılar. Bəymәmmәd Almәmmәdə dedi ki, apar kəs, ye, mənim qiymətimi ver.

Almәmmәd sevincək evə qaçdı. Xüsusi bir qürrə ilə, ay arvad, qarpızı kəs. Arvadı da həvəssiz qarpızı mətbəxə apardı. Çünki ərinin səriştəsiz olduğunu dəfələrlə görmüşdü. Qarpızı yudu, kəsdi və gördü ki, qıpqırmızı, təptəzə. Necə çığırdısa, bir saniyənin içərisində evdəki uşaq-böyük hamısı mətbəxə qaçdı ki, ay aman, nə oldu.

-Baxın, görün nə gözəl qarpızdır.

Almәmmәd yenidən bir də qürrələndi. Görürsünüz, nə gözəl qarpız almışam.

Hamı Almәmmәdi alqışladı, təriflədi, Almәmmәdin də qoltuqları qarpızlandı.

Səhəri gün Almәmmәdin həyat yoldaşı qarpızın da qabıqlarından ibarət tullantını atmağa gedəndə Bəymәmmәdin həyat yoldaşı ilə qarşılaşır və Bəymәmmәdin ona danışdığı qarpız əhvalatını Almәmmәdin arvadına çatdırır.

Almәmmәd iki-üç gün sonra yenə qarpız alanda və qarpız qıpqırmızı çıxanda və Almәmmәd yenə qürrələnəndə arvadı deyir ki, ay Almәmmәd, heç də qürrələnmə, bu qarpızları bizə sən yox, ChatGPT alır. Səndə haradadır bu bacarıq...

Almәmmәdi qısa sürən xoşbəxtlik tərk edir. Bütün ailə ChatGPT-nin canına dualar edir, onun başları üzərindən əskik olmamasını arzulayır.

***Mətanət Məmmədova***

# “Əshabi-Kəhf”: günəşin sağda doğub solda batan möcüzəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb*

Hələ də özü bir sirr olaraq qalan qalaktikada elə möcüzələr var ki, yaranmışların alisi olan insan da, texnologiyanın ən yüksək mərhələyə çatdığı əsrimiz də onlar qarşısında sözünü isbat etməkdə çətinlik çəkir. Bu möcüzələr bəzən kiçik zərrəciklərdən ibarətdir, gözə görünmür, bəzən isə əzəməti ilə gözümüz önündədir, bizsə onun necə yarandığına, hansı qüvvə tərəfindən belə füsunkar, bənzərsiz olduğuna heyran qa-







lırıq. Və gözlə görünən və görünməyənlər həyatımızın bir parçası olduğu üçün daim onları öyrənməyə can atır, Ulu Yaradan tərəfindən məhz insana verilən bu üstünlükdən istifadə etməyə çalışırıq.

Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində yerləşən və bu gün ”Əshabi-Kəhf ziyarətgahı” dini-mədəni abidə kompleksi adlandırılan ”Əshabi-Kəhv” in zirvəsi səmaya təmas edən qayalıqlarında da bir möcüzə gizlənir. O möcüzə ki, müqəddəs ”Qurani-Kərim”in ”Əl-Kəhf” surəsinin 17-ci ayəsində belə açıqlanır: ”Baxsaydın, günəşin mağaranın sağ tərəfindən doğub meyl etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın geniş bir yerində olduqlarını görərdin”.

## Beləliklə, ”Qurani-Kərim”də təsvir olunan ”Əshabi-Kəhf”

Dünyanın bir çox ölkələrində ”Əshabi-Kəhf”lərin olduğu iddia olunur. Uzun illər boyu bu ölkələrin alimləri əsl ”Əshabi-Kəhf”in məhz onların ölkələrində olduğunu iddia ediblər. Lakin burada qaranlıq məsələ yoxdur. Çünki müqəddəs kitabda nişan verilən amillər var, onlara əsasən əsl mağaranın hansı olduğu öz təsdiqini tapır.

Beləliklə, əsl Əshabi-Kəhf Culfada yerləşəndir, deyə bilərik. Çünki Culfadakı ”Əshabi-Kəhf”də içəri girən adamın sağı (bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür. Müqəddəs Qurani-Kərimdəki fikirlər mağaranın Culfada olmasını sübut edən amillərdən biridir. Buradakı məscidin də həmin ayədəki ”Üzərlərinə bir bina tikin. Rəbbləri onları daha yaxşı bilir” əmrinə əsasən tikilmiş olduğu da öz təsdiqini tapır.

Naxçıvan etnoqrafiyası və arxeologiyasına saysız töhfə verən etnoqraf alim Zaleh Novruzov yazırdı: Uzun illər müxtəlif istiqamətlərdə araşdırmalar, arxeoloji qazıntılar aparılsa da, bu müqəddəs yerin sirləri, bizcə, hələ də tam açılmayıb. Məşhur internet portalı olan GoogleMap-ın axtarış səhifəsində ƏshabiKəhfin yüksəkdən görünüşü çoxdan diqqətimizi çəkmişdi. Buradan baxanda digər hamar dağların fonunda Əshabi-Kəhfin ərazisində fərqli landşaft və relyef diqqəti çəkir. Kilometrlərlə sahədə sanki ərəb əlifbası



ilə hansısa bir yazıya oxşayan xətləri görmək olur. Düzdür, bu ”yazını” Əshabi-Kəhf mağarasını ziyarət edənlər görə bilmir. Çünki yalnız üstdən (fəzadan) baxanda qaranlıq (kölgə) dərələr, həmin şaxələnən kanyonlar yazını təşkil edir.

Əslində belə bir nəticəyə gəlmək olur ki, Əshabi-Kəhf mağarası bir neçə yerə şaxələnən, qranit daşlardan ibarət dar kanyonlardan ibarətdir. Əhali arasında ”Yeddi kimsənə” adlanan yerə qalxan pilləkəndən sağ tərəfə ayrılan dərə ziyarətgaha aid hesab edilmir. Kanyonun kənarları xeyli dik, uzun və nisbətən yaşıllıqdan ibarət olsa da, giriş hissədə sel sularının qarşısını almaq üçün tikilən bənd turistlərin də həmin hissəyə keçməsinə mane olur. Lakin Əshabi-Kəhf kompleksinin möcüzəsinin yaranmasında bu kanyonun və ziyarətgahdan aralı yarğan və dərələrin də xüsusi rolu vardır.

”Yeddi kimsənə”dən sonra mağara sola və sağa şaxələnir. Buradakı qayaaltı sığınacaqda köhnə tikili qalıqları mövcuddur. Tikililərdən birinin uzunluğu 2 metr, hündürlüyü 0,5 metrə yaxındır. Tikinti üçün xüsusi narın qumlu gildən istifadə edilib. Gil sarımtıl rəngdədir. İkinci tikinti qalığı ondan bir qədər altda uzunluğu 1,5 metr, hündürlüyü isə 0,4-0,5 metrdir. Nisbətən ağ rəngli, narın qumlu gillə hörülüb. Tikintidən nümunələr analiz edilib və eramızın III əsrinə aid olduğu qənaətinə gəlinib. Sağ yoldan isə dalğavari olmaqla bir daha sağ tərəfdə ”Cənnət bağı”na qol ayrılır.

## Yeddi, yoxsa üç?..

Əshabi-Kəhfdə ilk pilləkəni qalxanda, sol tərəfdə ”Yeddi kimsənə” adlanan qayaaltı sığınacaqda daşda insan bədəninin ”izləri” bilinir. Üçüncüdən sonra sayları dəqiqləşdirmək mümkün deyil. İnsanlar bu hissəni ziyarət edir, burada namaz qılırlar.

”Əl-Kəhf” surəsinin 25-ci ayəsində: ”Və mağaralarında üç yüz il qaldılar və doqquz il artırdılar”. Burada söhbət rəvayətə görə mağaraya sığınan gənclərdən gedir. Bəs onlar neçə nəfər olublar? Bu, uzun illər müzakirəsi aparılan məsələ olub.

Bu barədə Zaleh Novruzov yazırdı: Gənclərin mağarada neçə nəfər olması və nə qədər müddətə mağarada yatmaları bəzən mübahisə doğurur. Bu mövzu hələ orta əsr mənbələrində də öz əksini tapıb. Eldənizlər dövlətinin saray şairi Əbu Bəkir ibn Xosrov əl-Ustadi ”Yeddi yeniyetmə mağara sakini, Dəqyanus (Dağyunus) və onlar arasında baş verənlər” haqqında rəvayətdə (Munisnamə əsəri) yazır ki, adamlar Təmleyxagilə deyir ki, Dəqyanusun çarlığından 309 il keçib. Biz ”İncil”də uca Allah tərəfindən bu barədə, ”Dəqyanusdan qaçan altı gənc” haqqında oxumuşuq.



Əsərdə göstərilir ki, Dəqyanusun ölümündən sonra şahlığa Qasım adlı biri gəlir və cəmisi iki il şahlıq edir. Bundan sonra hakimiyyət rumların əlinə keçir. Onlar dörd il hakimiyyətdə olurlar.

”Naxçıvan tarixi” kitabında isə göstərilir ki, eradan əvvəl I-bizim eranın II əsrlərində Naxçıvan Atropotena, Parfiya və Romanın döyüş meydanına çevrilmişdi (göründüyü kimi, rəvayətlə tarixdə uyğunluq vardır). Əbu Bəkir ibn Xosrov əl-Ustadinin Mağara sakinləri rəvayətində yenə qeyd edilir ki, Dəqyanusun ölümündən 20 il sonra Zəkəriyyə peyğəmbər zühur edir. İsa peyğəmbərin dövründə isə möcüzəli hadisələr baş verir, 309 ildən sonra mağarada yatanlar oyanırlar.

Rəvayətdə Dəqyanusun zülmündən, əslində küfründən, 6 nəfər və bir çobanın ”Qıtmır” adlı iti ilə qaçdığı göstərilir.

”Əl-Kəhf” surəsinin 22-ci ayəsində deyilir: ”Tezliklə deyəcəklər: ”Onlar üç nəfərdirlər, dördüncüsü itləridir”. Və deyəcəklər:” Yeddi nəfərdirlər və səkkizincisi itləridir”. De: ” Mənim Rəbbim onların sayını daha yaxşı bilir”.

## Əshabi-Kəhf: etiqadın və turizmin məkanı

Əslində hələ də Əshabi-Kəhfin dinlə nə dərəcədə əlaqəsi olduğu yeni suallar doğurur. Lakin insanlar buranı etiqad ocağına çeviriblər və bu inancı heç bir qüvvə onların düşüncələrinin əksinə yönəldə bilməz.

Yadımdadır, sovet imperiyasının tərkibində yaşadığımız illərdə də, baxmayaraq ki, dini etiqadlar və mərasimlər qadağan olunmuşdu, lakin buna baxmayaraq həm naxçıvanlılar, həm də ölkəmizin digər bölgələrindən gələn insanlar ƏshabiKəhfə gedir, burada etiqadlarını edir, niyyətlərinin qəbul olmasını Yardandan arzulayırdılar.

Əshabi-Kəhflə bağlı xatirələrimdə qalanlardan biri də 80-90-cı illərdə bu ziyarətgahın özünün və oraya gedən yolların çox bərbad vəziyyətdə olmasıdır. Əshabi-Kəhfə getmək üçün camaat sübh çağından yola çıxırdı. Çünki çala-çuxur yollarla oraya bir neçə saata çatmaq olurdu. Ziyarətgah isə o vəziyyətdə idi ki, insan üçün hər an təhlükə yarana bilərdi. Odur ki, böyüklər, bələdçilər uşaqların, qonaqların diqqətli olmasını tövsiyə edirdi.

1990-cı illərdən başlayaraq Ulu Öndər Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrdə burada başlanan quruculuq və bərpa işləri Əshabi-Kəhfin və bu dini ziyarətgaha gedən yolların da abadlaşması ilə nəticələndi. Yəni Əshabi-Kəhfin əvvəlki vəziyyətini görənlər bu fərqi daha çox hiss edirlər. Çünki onun əvvəlki vəziyyətindən əsər-əlamət qalmadı.

Bu gün ”Əshabi-Kəhf ziyarətgahı” dini-mədəni abidə kompleksi Azərbaycanda tanınmış dini turizm obyektidir. Hər gün yüzlərlə insan bu ocağa gələrək ziyarət edir, Allah yolunda qurbanlar kəsilir. İlin bütün fəsillərində burada əcnəbi turistlərə rast gəlmək mümkündür.

Son illərdə ”Əshabi-Kəhf”də iki dəfə abadlıq, bərpa işləri aparılıb, zəvvarlar üçün rahatlıq yaradılıb, 13 km məsafədə rahat yol salınıb, məscid tikilib, kitabə qoyulub. 2007-ci ildə aparılan quruculuq işləri daha da genişləndirilib, ziyarətgahda köşklər memarlıq baxımından fərqlənən tikililərlə əvəz olunub. Ziyarətgahın ərazisində ”Qonaq Evi”, ”Bələdçi otağı” və hədiyyələr mağazası da fəaliyyət göstərir. Azərbaycanın bölgələrindən və müxtəlif müsəlman ölkələrindən bu dini ocağa gələn zəvvarların sayı ildən-ilə artır. Kompleks bu gün zəvvarlıq mərkəzinə çevrilib.

***

Günəşin sağ tərəfdə doğub, sol tərəfdə qüruba enən mənzərəsini özündə əsrlərdir, hər gün təkrarlayan Əshabi-Kəhf elə əsrlərdir, öz möcüzəsini də belə gizlicə qoruyur. Biz onu nə qədər öyrənsək, araşdırsaq da, onun bizə vermədiyi bir sirri var. Elə bu sirdir onu ziyarətgaha, dini etiqad abidəsinə çevirən.

**Mətanət Məmmədova**

# "1 alana 1 hədiyyə": Fürsət, yoxsa təhlükə?



## AYDINLIQ GƏTİRİLDİ

"Bir mal alana bir məhsul hədiyyə verilməsi və ya digər endirimli təkliflər hal-hazırda satış məkanlarında geniş yayılmış marketinq strategiyalarından biridir. Bu cür kampaniyalar ya mağaza sahibi ilə təchizatçının qarşılıqlı razılığı əsasında, ya da mağazanın satış dövriyyəsini artırmaq məqsədilə təkbaşına həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Eyyub Hüseynov sözlərinə belə davam edib: "Marketoloqlar üçün bu metod istehlakçının diqqətini cəlb etmək və onu alışa təşviq etmək baxımından səmərəli vasitə kimi qiymətləndirilir. Lakin bu kampaniyalar bəzən istehlakçılar arasında çaşqınlığa və narazılıqlara da səbəb olur.

### Yaranan problemlər və tipik hallar

Yanıltıcı endirim halları

Bəzən mağaza endirimdə olan bir malı digər endirimsiz məhsulla birlikdə təqdim edir. İstehlakçı isə bu iki malı ayırd edə bilmir və nəticədə bütün alış-verişin endirimli olduğunu zənn edərək malı alır. Bu, aldatıcı kommersiya praktikası kimi qiymətləndirilə bilər.

### Endirimli məhsulun qaytarılması və dəyişdirilməsi ilə bağlı problemlər

Digər hallarda endirimli məhsul alındıqdan sonra texniki və ya keyfiyyət problemi yaranır. Lakin bəzi satıcılar belə məhsulları dəyişdirməkdən və ya geri qəbul etməkdən imtina edirlər. Qanunvericiliyə əsasən isə endirimli və ya kampaniya çərçivəsində satılan mallar da istehlakçının hüquqlarına zidd olmamalıdır və həmin məhsullar geri qaytarıla və ya dəyişdirilə bilər.

### Saxlama şəraiti və təhlükəsizlik problemləri

Qida məhsullarının düzgün saxlanılması məsələsi xüsusi diqqət tələb edir. Bəzən mağazaların anbarlarında məhsullar düzgün temperatur rejimində saxlanılmır və bu, onların vaxtından əvvəl yararsız hala düşməsinə səbəb olur. Bu cür hallar istehlakçının sağlamlığı üçün təhlükə yarada bilər. Məsələn, bizə təqdim olunan bir nümunədə yararlılıq müddəti hələ başa çatmamış bir süd məhsulunda kif aşkarlanıb. Bu da həmin məhsulun saxlama şəraitinin pozulduğunu göstərir.

### Yararsız malların endirim adı altında satışa çıxarılması

Təəssüf ki, bəzi hallarda satıcılar son istifadə tarixinə az qalmış və ya artıq keyfiyyətini itirmiş malları xüsusi kampaniyalar adı altında satışa çıxarırlar. Belə məhsullar ya istehsalçı, ya da mağaza rəhbərliyi tərəfindən bilərəkdən endirimə salınaraq bazara təqdim olunur. Halbuki bu, həm qanun pozuntusudur, həm də istehlakçı təhlükəsizliyinə açıq təhdiddir.

### İstehlakçılara tövsiyələr

İstehlakçılar bilməlidirlər ki, istənilən məhsulun istehsaldan satışadək olan dövrü "soyuq zəncir" prinsipi ilə, yəni sanitariya-gigiyena və temperatur tələblərinə uyğun şəkildə təmin edilməlidir. Hər hansı məhsulun yararlılıq müddəti davam etsə belə, saxlanma qaydaları pozulubsa, o artıq istehlak üçün təhlükəli hesab olunur.

İstehlakçılar belə hallarla qarşılaşdıqda:

- Qida Təhlükəsizliyi Agentliyinin 1003 nömrəli qaynar xətti ilə
- Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin 195-2 çağrı mərkəzinə müraciət edə bilərlər.

Bu qurumlar vasitəsilə şikayətlərin araşdırılması və tədbir görülməsi təmin oluna bilər. Endirim kampaniyaları düzgün şəkildə tətbiq olunduqda həm istehlakçı, həm də satıcı üçün faydalı ola bilər. Lakin bu alətlərdən sui-istifadə halları baş verdikdə, bu, istehlakçı hüquqlarının pozulmasına və ictimai narazılığa səbəb olur. Buna görə də belə kampaniyalar şəffaf, qanunlara uyğun və etik prinsiplər çərçivəsində həyata keçirilməlidir".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# NBA ulduzundan 165 milyon dollarlıq 3 illik müqavilə!



NBA-nın ulduz basketbolçusu Luka Donçiç çıxış etdiyi "Los-Anceles Leykers" komandası ilə yeni müqavilə imzalayıb. Klubun rəsmi saytında yer alan məlumatda deyilir ki, onunla sözləşmə 2028-ci ilə qədər nəzərdə tutulub. Sloveniyalı oyunçu 3 il ərzində 165 milyon ABŞ dolları gəlir əldə edəcək. 2025-ci ilin fevral ayından Los-Anceles təmsilçisinin formasını geyinən Luka Donçiç bu müddət ərzində 28 oyunda orta hesabla 28,2 xal, 8,1 ribaund, 7,5 məhsuldar ötürmə ilə yadda qalıb.

# Ağıllı saatlardan istifadə edənlər, xəbəri mütləq oxuyun!

Ağıllı saatlarla bağlı təşviş doğuran məlumat yayılıb. Məlum olub ki, ağıllı saatlarda istifadə edilən flüorlu sintetik kauçukun tərkibində ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərə bilən kimyəvi maddələr var. Ağıllı saatlar və fitnes izləyiciləri gündəlik həyatda əvəzolunmaz olsalar da, özləri ilə bəzi riskləri də gətirirlər.

Araşdırmalar nəticəsində məlum olub ki, flüorlu sintetik kauçukdan hazırlanmış qolbaqlarda perfluoroheksanoik turşu (PFHxA) adlı kimyəvi maddə var. Bu maddə həm ətraf mühitə, həm də insan sağlamlığına zərərli olduğu bilinən PFAS qrupunun üzvüdür.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**